RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 203 (9370) 20 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qarabağ qanunsuz silahlı dəstələrdən təmizlənir



## Qanunsuz rejim özünü buraxmayana, ağ bayraq qaldırmayana qədər antiterror tədbirləri həyata keçiriləcək

**İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra regionda sülhün bərqərar olunması üçün heç bir addım atmayan, əvəzində isə Qarabağdakı separatçı dəstələrə dəstək verən Ermənistana daha bir dərs verildi. Azərbaycan Ordusu Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri keçirərək separatçı qüvvələrin hərbi təyinatlı obyektlərini, uzunmüddətli atəş nöqtələrini məhv etdi.**

Azərbaycan dəfələrlə məğlub Ermənistana xəbərdarlıq ünvanlayaraq revanşist qüvvələrin yenidən silahlandırma prosesini dayandırmasını, hərbi təxribatlardan, mina terrorundan əl çəkilməsini tələb edirdi. Ancaq qarşı tərəf hər zamankı kimi oyunbazlıq edərək siyasi şantaja, manipulyasiyaya əl ataraq diqqətləri yayındırmağa çalışırdı. İki gün öncə Ağdam-Xankəndi və Laçın yolu ilə yüklərin Xankəndiyə keçidinin reallaşması və ermənilərin etirafları Hayastanın "humanitar böhran" iddiasının ifşası ilə nəticələndi. Hayastanın dünya ictimaiyyətinə "həqiqət" kimi sırımaq istədiyi iddiaların ağ yalan olduğu üzə çıxan kimi əsl erməni xisləti özünü göstərdi. Son günlər törətdikləri təxribatlar, mina terroru nəticəsində Daxili İşlər Nazirliyinin və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşları həlak oldular. Sentyabrın 19-da Ağdam istiqamətində atəşkəsi pozmaqla iki hərbi qulluqçumuzu yaraladılar.

Ümumiyyətlə, son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən ordumuzun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olmuşdu.

→ 5

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Ermənistanın Azərbaycan ərazisində yaratdığı və hələ də dəstəklədiyi qanunsuz rejimin "danışıqlara başlamaq çağırışı" ilə əlaqədar bildirir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir neçə dəfə ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini dialoqa dəvət edib, lakin onlar hər dəfə bundan imtina ediblər.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşə hazır olduğunu bildirir. Lakin antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır.

Əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir daha Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini Yevlaxa görüşə dəvət edir.

## *Rəcəb Tayyib ƏRDOĞAN:* "Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik"

"Bir millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik.

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasındakı çıxışında deyib.

"Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hamının qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır. Bundan başda bir statusun zorla qəbul etdirilməsi əsla qəbul olunmayacaq", - deyə Türkiyə Prezidenti bildirib.



## *Polkovnik Anar EYVAZOV:* "Bölmələrimiz tərəfindən yalnız legitim hərbi hədəflər zərərsizləşdirilir"

**Sentyabrın 19-da Müdafiə Nazirliyi tərəfindən media nümayəndələri üçün brifinq keçirilib.**

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov brifinqdə çıxış edərək deyib: "Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri uğurla davam edir.

→ 3

## Azərbaycan XİN Qarabağdakı qanunsuz erməni silahlılarının təxribatlarına qarşı cavab tədbirləri barədə bəyanat yayıb

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinin təxribatlarına qarşı cavab tədbirləri barədə bəyanat yayıb.**

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıblar. Bununla yanaşı, Ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb.

Erməni silahlı qüvvələrinin bu kimi təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib.

→ 2

## Azərbaycan XİN Cozef Borelin bəyanatına cavab verib

**Avropa İttifaqının hazırkı hərbi eskalasiyanın səbəblərini, eləcə də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində həm mülki əhaliyə, həm də hərbçilərə qarşı həyata keçirdiyi qanunsuz fəaliyyətə son qoymaq üçün Azərbaycan tərəfindən atılan addımları qəsdən təhrif edən bəyanatı bizi təəssüfləndirdi.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin Azərbaycan Silahlı Qüvvələri tərəfindən aparılan antiterror tədbirləri ilə bağlı bəyanatına dair şərhində bildirilib.

→ 2

## Azərbaycanın keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyaların dəstək BƏYANATI

Müxtəlif dövlət qurumlarının işğaldan azad edilən Qarabağ torpaqlarında çalışan işçilərinin, həmçinin onların təhlükəsizliyini qoruyan qəhrəman polislərimizin erməni silahlı birləşmələrinin mina terroruna məruz qalması insanlarımızın böyük hiddətinə səbəb olmuşdur. Belə bir məqamda erməni silahlı birləşmələrinin ordumuzla üzbəüz mövqelərinə əlavə qüvvələr və zirehli texnikalar cəlb etməsi isə onların məkrli niyyətinin daha böyük terror aktları törətmək olduğunu göstərməkdədir.

Biz, Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycanın müzəffər ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə dəstəyimizi ifadə edir, qəhrəman ordumuza zəfər arzulayırıq!

→ 5

## Dünya mediası Azərbaycanın Qarabağ bölgəsində başlatdığı antiterror tədbirlərindən yazmaqda davam edir




ABŞ-nin CNBC televiziyasının elektron versiyasında yayımlanan məqalədə də Azərbaycanın Qarabağ bölgəsində konstitusiya quruluşunu bərpa etmək və Ermənistan silahlı qüvvələrinin birləşmələrini ərazidən çıxarmaq üçün antiterror tədbirlərinə başladığı qeyd olunub. Bildirilib ki, Azərbaycanın Müdafiə Nazirliyi yaydığı bəyanatda lokal xarakterli tədbirlərin məqsədinin Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi olduğu bildirilib.

→ 6

# AZƏRBAYCAN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ GÖRÜR

## Azərbaycanın və Türkiyənin XİN başçıları bölgədəki son vəziyyəti müzakirə ediblər

**Sentyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının açılışında iştirak məqsədilə Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqlik əlaqələrindən irəli gələn məsələləri, eləcə də bölgəmizdəki son vəziyyəti müzakirə ediblər.

Ceyhun Bayramov həmkarını regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barədə məlumatlandırıb, bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, beynəlxalq hüququ və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü bəndini kobud şəkildə pozmaqla Ermənistanın hələ də öz silahlı qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmaması, bütün mümkün siyasi, hərbi, maliyyə və ideoloji vasitələrlə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı separatçılığı dəstəkləməkdə və təşviq etməkdə davam etməsi regionda gərginliyin əsas səbəbidir.

Ermənistan və onun tərəfindən Azərbaycanın suveren ərazilərində yaradılmış qanunsuz rejim tərəfindən son günlər ərzində hərbi təxribatların xüsusilə intensivləşdiyi, hərbi-quruculuq işlərinin geniş miqyas aldığı və döyüş mövqelərinin davamlı şəkildə gücləndirilməsinin müşahidə edildiyi, bütün bunların Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələri tərəfindən növbəti dəfə irimiqyaslı hərbi təxribata hazırlıq gördüyünə dəlalət etdiyi diqqətə çatdırılıb.

Son olaraq sentyabrın 19-da qanunsuz erməni hərbi birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən basdırılmış minaların partlaması nəticəsində aralarında ərazidə xidmət aparan Daxili İşlər Nazirliyinin əməkdaşları, habelə bərpa işlərinə cəlb edilmiş mülki şəxslərin olduğu 6 nəfərin həlak olduğu və 6 nəfərin isə ciddi xəsarət aldığı vurğulanıb.

Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilən lokal antiterror tədbirlərinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib.

C.Bayramov vurğulayıb ki, antiterror tədbirlərinin gedişində mülki şəxslərin və mülki infrastruktura zərər dəyməməsi üçün bütün tədbirlər görülüb. Azərbaycan tərəfi dəfələrlə bəyan etdiyi kimi, Qarabağ iqtisadi rayonunun erməni sakinlərinin bütün hüquq və azadlıqlarının, onların təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və tərəfdar çıxdığı beynəlxalq insan hüquqları mexanizmləri əsasında təmin etməkdə qətiyyətlidir.

Azərbaycanlı nazir vurğulayıb ki, bölgədə vəziyyətin sabitləşməsi üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən tam çıxarılması, qanunsuz erməni silahlı birləşmələrinin tərk-silah edilməsi, qanunsuz rejimin bütün ünsürlərinin buraxılması labüddür.

Hakan Fidan hər zaman olduğu kimi, Azərbaycanın suveren ərazilərində həyata keçirdiyi legitim addımları dəstəklədiklərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ceyhun Bayramov italiyalı həmkarını Azərbaycan tərəfinin lokal antiterror tədbirləri barədə məlumatlandırıb

**Sentyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının açılışında iştirak məqsədilə Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər Azərbaycan və İtaliya arasında əlaqələrin bütün sahələrdə, xüsusilə iqtisadi, enerji, humanitar əlaqələrin yüksələn xətlə inkişafından məmnunluq ifadə ediblər. Bu kontekstdə, iki ölkə arasında yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov tərəf-müqabilini Azərbaycan tərəfindən postmünaqişə dövründə Ermənistan ilə ikitərəfli münasibətlərin normallaşması, azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması istiqamətində Azərbaycan tərəfindən atılan ardıcıl addımlar haqqında məlumatlandırıb. İtaliya şirkətlərinin azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərində yaxından iştirak etməsi məmnunluqla qeyd olunub.

Ceyhun Bayramov İtaliyadan olan həmkarını regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barədə məlumatlandırıb, bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, beynəlxalq hüququ və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü bəndini kobud şəkildə pozmaqla Ermənistanın hələ də öz silahlı qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmaması, bütün mümkün siyasi, hərbi, maliyyə və ideoloji vasitələrlə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı separatçılığı dəstəkləməkdə və təşviq etməkdə davam etməsi regionda gərginliyin əsas səbəbidir.

Ermənistan və onun tərəfindən Azərbaycanın suveren ərazilərində yaradılmış qanunsuz rejim tərəfindən son günlər ərzində hərbi təxribatların xüsusilə intensivləşdiyi, hərbi-quruculuq işlərinin geniş miqyas aldığı və döyüş mövqelərinin davamlı şəkildə gücləndirilməsinin müşahidə edildiyi, bütün bunların Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələri tərəfindən növbəti dəfə irimiqyaslı hərbi təxribata hazırlıq gördüyünə dəlalət etdiyi vurğulanıb.

Son olaraq sentyabrın 19-da qanunsuz erməni hərbi birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən basdırılmış minaların partlaması nəticəsində aralarında ərazidə xidmət aparan Daxili İşlər Nazirliyinin əməkdaşları, habelə bərpa işlərinə cəlb edilmiş mülki şəxslərin olduğu 6 nəfərin həlak olduğu və 6 nəfərin isə ciddi xəsarət aldığı vurğulanıb.

Silahlı qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror tədbirlərinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib.

C.Bayramov vurğulayıb ki, tədbirlərin gedişində mülki şəxslərin və mülki infrastruktura zərər dəyməməsi üçün bütün tədbirlər görülüb. Azərbaycan tərəfi dəfələrlə bəyan etdiyi kimi, Qarabağ iqtisadi rayonunun erməni sakinlərinin bütün hüquq və azadlıqlarının, onların təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və tərəfdar çıxdığı beynəlxalq insan hüquqları mexanizmləri əsasında təmin etməkdə qətiyyətlidir.

Nazir diqqətə çatdırıb ki, bölgədə vəziyyətin sabitləşməsi üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən tam çıxarılması, qanunsuz erməni silahlı birləşmələrinin tərk-silah edilməsi, qanunsuz rejimin bütün ünsürlərinin buraxılması labüddür.

Görüşdə qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Türkiyə XİN Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri ilə bağlı bəyanat yayıb

**Türkiyənin Xarici İşlər Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, bəyanatda Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Ordusunun hərbi qulluqçularına və təhlükəsizlik qüvvələrinin əməkdaşlarına qarşı uzun müddətdir davam edən silahlı hücumları və təxribatları ilə əlaqədar Azərbaycan Ordusunun sentyabrın 19-da yalnız hərbi hədəflərə qarşı antiterror tədbirləri başlatdığı bildirilib.

"İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən üç il ərzində hazırkı vəziyyətlə əlaqədar daim ifadə etdiyi legitim və haqlı narahatlıqların aradan qaldırılmaması nəticəsində Azərbaycan suveren ərazilərində zəruri tədbirlər görmək məcburiyyətində qalıb.

Azərbaycan ilə Ermənistan arasında bu günə qədər həssaslıqla həyata keçirilən əhatəli müzakirə prosesinin nəticəyönümlü olması istiqamətində davamlılığının təmin edilməsinin bölgədə sülhün, təhlükəsizliyin, rifahın və davamlı sabitliyin təsis olunması üçün yeganə yol olduğuna inanırıq", - deyə bəyanatda bildirilib.

## Azərbaycan XİN Cozef Borelin bəyanatına cavab verib

*Əvvəli 1-ci səh.*

Qeyd edilib ki, hazırda Azərbaycanın həyata keçirdiyi hərbi antiterror tədbirləri Ermənistanın qanunsuz silahlı birləşmələri tərəfindən bir sıra irimiqyaslı hərbi təxribatlara və bir gündə erməni qüvvələrinin təxribatçı hərəkətləri nəticəsində baş verən mina partlayışında iki dinc sakinin və dörd hərbçinin həlak olmasına səbəb olan terror aktlarına qarşı yönəlib. Həmçinin minaatan hücumları nəticəsində iki hərbçimiz yaralanıb.

Üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq ərazilərimizi boşaltmayan Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək mümkün irimiqyaslı təxribatların qarşısını almaq üçün Azərbaycan tərəfindən antiterror tədbirləri görülüb.

"Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olan hər hansı hərbi mövcudluq regional sülhə və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın bugünkü addımları bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib. Azərbaycan dinc erməni sakinlərə hücum etmir və bu barədə istənilən iddia əsassız və qəbuledilməzdir.

Azərbaycan bütün sakinlərini, o cümlədən erməniəsilli sakinləri qorumağa və bütün Azərbaycan ərazisində öz Konstitusiya quruluşunu bərpa etməyə tam sadiqdir", - deyə XİN-in şərhində vurğulanıb.

## Fransanın son bəyanatını işğal dövrünün qalıqlarına göstərilən dəstək kimi qiymətləndiririk

**Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq tərəfimizdən görülən tədbirlər barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatını qətiyyətlə rədd edir və pisləyirik.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa XİN-in bəyanatına dair şərhində bildirilib.

Qeyd edilib ki, Azərbaycan ərazilərinin işğalı faktına və bu faktın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi ilə tanınmasına baxmayaraq, Fransanın 1997-2020-ci illərdə ATƏT-in Minsk qrupunda həmsədrliyi dövründə münaqişənin beynəlxalq hüquq əsasında ədalətli həllini tapmasından daha çox işğal nəticələrinin və bölgədəki status-kvonun saxlanmasına töhfə verdiyi yaxşı yadımızdadır.

Bu baxımdan hazırkı postmünaqişə vəziyyətində belə əvvəlki siyasətindən imtina etməyən Fransanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq görülən tədbirlər barədə bugünkü bəyanatını işğal dövrünün qalıqlarına göstərilən dəstək kimi qiymətləndiririk.

Şərhdə həmçinin vurğulanıb ki, 44 günlük Vətən müharibəsi zamanı da anti-Azərbaycan mövqeyi və bəyanatları ilə seçilən Fransanın münaqişədən sonrakı vəziyyətdə bölgədə sülh quruculuğu səylərindən kənarda dayanaraq, prosesə yalnız mənfi təsir göstərən açıqlamalar verməsi, separatizmi dəstəkləyən mövqe göstərməsi ilə özünü regiondan daha da təcrid etməsi yaxşı məlumdur. Fransanın bugünkü mövqeyi bu ölkənin müstəmləkə bölgələrində bu gün üzləşdiyi mövcud vəziyyətdən dərs almadığını və bu məsələdə əvvəlki davranış və siyasətini davam etdirdiyini göstərir.

Fransa rəsmiləri, Milli Assambleyası və Senatı Azərbaycana qarşı bəyanatlar verilməsi və sənədlərin qəbulunda Ermənistandan daha fəal çıxış edirlər.

Fransanın islamofob və anti-Azərbaycan siyasəti, onun daxili işlərimizə qəbuledilməz müdaxiləsi göstərir ki, Fransa regiondan nə qədər uzaq olsa, region üçün bir o qədər yaxşı olar.

## Azərbaycan XİN Qarabağdakı qanunsuz erməni silahlılarının təxribatlarına qarşı cavab tədbirləri barədə bəyanat yayıb

*Əvvəli 1-ci səh.*

Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Görülən tədbirlərin hədəfi müstəsna olaraq qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur.

Heç bir halda Azərbaycan tərəfi mülki əhalini hədəf almır. Bu xüsusda, erməni mülki əhalinin hərbi hədəflərdən uzaq durması zəruridir.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

## Ermənistan ordusunun birləşmələri silahı yerə qoyub təslim olsa, antiterror tədbirləri dayandırılacaq

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi bir daha Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrini silahı yerə qoymağa və təslim olmağa çağırır. Bu halda antiterror tədbirləri dayandırılacaq.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingenti ilə operativ təmasdayıq və onların öz vəzifələrini icra etmələri üçün tərəfimizdən hər cür şərait yaradılır.

## Düşmənin atəş nöqtələri və döyüş vasitələri məhv edilir

Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilir.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus növbəti uzunmüddətli atəş nöqtələri və hərbi təyinatlı obyektlər bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus növbəti sığınacaq və döyüş texnikasının məhv edilməsi anını yayımlayıb.

* * *

Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci müdafiə briqadasına məxsus sursat anbarlarından biri məhv edilib. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

* * *

Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus hərbi təyinatlı radiotexniki qovşağın zərərsizləşdirilməsi anını yayımlayıb.

* * *

Mülki infrastrukturumuzu hədəfə alan Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus top qurğusu məhv edilib.

*AZƏRTAC*

## Qanunsuz erməni silahlıları sərnişin təyyarəsinə qarşı növbəti dəfə radiomaneələr tətbiq edib

Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən növbəti dəfə radiomaneələr tətbiq edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 19-u Tbilisi-Bakı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın E-190 tipli sərnişin təyyarəsinə saat 20:28-dən 20:34-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.

## "Legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır"

**Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirlər çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır.

Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq. Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır.

Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunacaq.

Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq.

Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

# AZƏRBAYCAN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ GÖRÜR

## Azərbaycan və Türkiyənin müdafiə nazirləri arasında telefon danışığı olub

**Sentyabrın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler arasında telefon danışığı olub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə həmkarını məlumatlandırıb.

Cənab Y.Güler Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu bildirib.

## Ermənilərin hərbi obyektləri yüksək dəqiqliklə sıradan çıxarılır

**Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub.**



Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu xüsusda döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilib.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuşdur. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışdır. Bu kimi faktlar Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamıdır.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bayan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksəkdəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır.

Bir daha bildiririk ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb", - deyə məlumatda bildirilir.

## Azərbaycan Müdafiə Nazirliyi Qarabağın erməni sakinlərinə müraciət edib

**Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

"Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır", - deyə nazirliyin müraciətində bildirilib.

Həmçinin qeyd olunub ki, qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

## "Ermənistan silahlı qüvvələrinin uzunmüddətli atəş nöqtələri yüksəkdəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır"




**Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması ilə əlaqədar sentyabrın 19-da Müdafiə Nazirliyində brifinq keçirilib.**

AZƏRTAC xəbər verir ki, brifinqdə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov media nümayəndələrinə vəziyyət barədə məlumat verib.

Bildirilib ki, son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə mütəmadi atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub.

Eyni zamanda döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilib.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuşlar. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışlar. Bu kimi faktlar Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamıdır.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksəkdəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır", - deyə A.Eyvazov diqqətə çatdırıb.

Müdafiə Nazirliyinin rəsmisi vurğulayıb ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Qeyd edilib ki, keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb.

## Hərbi attaşelər Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə məlumatlandırılıb



**Sentyabrın 19-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, brifinqdə çıxış edən Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə xarici ölkələrin hərbi nümayəndələrinə ətraflı məlumat verib.

Bildirilib ki, bölgədə başladılan lokal xarakterli antiterror tədbirlərinin məqsədi 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsidir.

Bölmələrimiz tərəfindən mülki əhali və mülki infrastruktur obyektlərinin hədəfə alınmadığı, yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflərin sıradan çıxarıldığı xüsusi vurğulanıb.

Sonda brifinqdə qeyd edilən faktlarla bağlı videomateriallar nümayiş olunub və nümayəndələri maraqlandıran suallar cavablandırılıb.

## *Polkovnik Anar EYVAZOV:* "Bölmələrimiz tərəfindən yalnız legitim hərbi hədəflər zərərsizləşdirilir"

*Əvvəli 1-ci səh.*

Tədbirlər zamanı Ermənistan silahlı qüvvələri birləşmələrinin 60-dan çox döyüş mövqeyi Silahlı Qüvvələrimizin nəzarətinə keçirilib. Eyni zamanda, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus 20-dən artıq hərbi təyinatlı avtomobil, 40-dan artıq artilleriya qurğusu, 30-dan artıq minaatan, 2 ədəd zenit-raket qurğusu, 6-dan artıq "Martira" radioelektron mübarizə stansiyası və digər hərbi təyinatlı vasitələri zərərsizləşdirilib.

Bəzi Ermənistan sosial media resurslarında guya bölmələrimiz tərəfindən mülki obyektlərin atəşə tutulması barədə yayılan məlumatlar təxribat və dezinformasiya xarakteri daşıyır. Burada məqsəd ordumuzun imicinə xələl gətirmək və beynəlxalq ictimaiyyətdə lokal antiterror tədbirləri haqqında yanlış fikir formalaşdırmaqdır. Müdafiə Nazirliyinin rəsmi internet saytı və sosial media hesablarında yaydığımız videolardan da aydın görünür ki, bölmələrimiz tərəfindən yalnız legitim hərbi hədəflərə zərbələr endirilir.

Azərbaycanın Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri zamanı dəfələrlə müşahidə edilib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri bölmələrinin hədəfindən yayınmaq məqsədilə Ermənistan silahlı qüvvələrinin birləşmələri müxtəlif təyinatlı zirehli döyüş texnikası və atəş vasitələrini yaşayış məntəqələrində yerləşdirib, eyni zamanda hərbi təyinatlı obyektlərə mülki şəxsləri cəlb edir.

Məlum olduğu kimi, arsenalımızda ən müasir tələblərə cavab verən yüksək dəqiqliyə malik silah və döyüş texnikası mövcuddur. Peşəkar hərbi qulluqçularımızın bu silahlardan istifadə edilməklə hədəfə aldığı hərbi obyektlərin məhv edilməsi üzrə verilən tapşırıqlar bir çox hallarda məhz hərbi obyektdə mülki şəxslərin olması aşkar edildikdən sonra obyektin hədəfə alınması dayandırılıb.

Bir daha bildiririk ki, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş texnikasını yaşayış məntəqələrində və yaxud onların ətrafında yerləşdirməsinə baxmayaraq yüksək dəqiqliklə həyata keçirilən atəş nəticəsində yalnız uzunmüddətli atəş nöqtələri, döyüş texnikası və hərbi məqsədlər üçün istifadə edilən hərbi infrastruktur sıradan çıxarılır və zərərsizləşdirilir.

Qeyd etdiyim faktlarla bağlı ictimaiyyətə mütəmadi olaraq videomateriallar təqdim edilib və bundan sonra da təqdim ediləcəkdir.

Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən Ermənistan silahlı qüvvələri birləşmələrinin üzvlərini silahı yerə qoyaraq təslim olmağa çağırırıq. Həmçinin ərazidə olan mülki şəxslərə qətiyyən onlara yaxın durmamağı və hər hansı yardım etməməyi tövsiyə edirik. Tövsiyə xarakterli bildirişlər səsgücləndirici və digər texniki vasitələrlə çatdırılır".

Brifinq zamanı media nümayəndələrinə videomaterial da təqdim edilib.

## MN: "Antiterror tədbirlərində icra edilən fəaliyyətlər beynəlxalq hüququn norma və prinsipləri çərçivəsindədir"

**Qarabağ iqtisadi rayonunda erməni silahlılarına qarşı antiterror tədbirləri davam edir.**

Bölgədə başladılan lokal xarakterli antiterror tədbirlərinin məqsədi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının yerinə yetirilməsi, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov brifinqdə söyləyib.

A.Eyvazov bildirib ki, Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinə dəvət edilib və onlara həyata keçirilən antiterror tədbirləri barədə ətraflı məlumat verilib.

Polkovnikin sözlərinə görə, lokal xarakterli antiterror tədbirlərində icra edilən fəaliyyətlər Azərbaycan qanunlarına, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir. "Mülki infrastrukturu və mövqelərimizi artilleriya qurğuları, eləcə də müxtəlif çaplı silahlardan atəşə məruz qoyan Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, sursat anbarı, hərbi təyinatlı radiotexnika qovşağı, eləcə də digər döyüş vasitələri sıradan çıxarılıb.

Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən keçirilən tədbirlər çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınaraq sıradan çıxarılır. Lokal antiterror tədbirlərinə cəlb olunan Silahlı Qüvvələrimizin hərbi qulluqçularının mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir, onlar bütün növ təminatla təmin ediliblər", - deyə o vurğulayıb.

Mətbuat xidmətinin rəisi media nümayəndələri və sosial şəbəkə istifadəçilərinə də çağırış edərək deyib: "Bölgədəki vəziyyətlə bağlı Müdafiə Nazirliyinin rəsmi internet saytı və sosial media resurslarında mütəmadi olaraq məlumat verilir. Media nümayəndələri və sosial şəbəkə istifadəçilərini qarşı tərəfə məxsus bəzi sosial media hesablarında paylaşılan heç bir real əsası olmayan məlumatları tirajlamamağa, yalnız rəsmi mənbələrə istinad etməyə çağırırıq".

## Ordumuzun mövqeləri atəşə tutulub

Sentyabrın 18-də saat 23:50 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 19-da saat 02:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonunun Cil yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Novoivanovka yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutur.

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülür.

* * *

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutur.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

*AZƏRTAC*

# AZƏRBAYCAN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ GÖRÜR

## XİN: "Sülhün və təhlükəsizliyin təmini üçün Ermənistanın və onun yaratdığı qondarma rejimin törətdiyi terror aktlarının qarşısı alınmalıdır"

**Bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistanın və onun yaratdığı qondarma rejimin hərbi təxribatları və törətdiyi terror aktları qətiyyətlə pislənməli və onların qarşısı alınmalıdır.**



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Xocavənddə mina terroru nəticəsində mülki şəxslərin və Daxili İşlər Nazirliyinin əməkdaşlarının həlak olmaları barədə yaydığı açıqlamada bildirilib.

Qeyd edilib ki, sentyabrın 19-da bir nəqliyyat vasitəsi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində 2 mülki şəxs həlak olub.

"Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həlak olub.

Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!

Bununla 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər ümumilikdə mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub.

Xocavənd rayonu ərazisində baş verən mina partlayışı bir daha göstərir ki, üçtərəfli Bəyanatın 4-cü bəndini kobudcasına pozaraq Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini hələ də çıxarmayan, hərbi fəaliyyəti və minaların yerləşdirməsini davam etdirən Ermənistanın və onun yaratdığı qondarma rejimin əsas məqsədi bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluqla məşğul olmaqdır. Bununla yanaşı, bu təxribatların məqsədi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır", - deyə XİN-in açıqlamasında vurğulanıb.

## Ombudsman beynəlxalq ictimaiyyəti Ermənistanın mina terroruna reaksiya verməyə çağırıb

**İşğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın bəyanatında qeyd edilib.

Bəyanatda bildirilib ki, içərisində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarının olduğu nəqliyyat vasitəsi sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Həmçinin terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edən və içərisində Daxili İşlər Nazirliyinin əməkdaşlarının olduğu nəqliyyat vasitəsi Xocavəndin Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb. Baş vermiş partlayışlar nəticəsində iki mülki şəxs və nazirliyin dörd əməkdaşı həlak olub.

"Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən törədilən mina terroru azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri ilə məşğul olan mülki şəxslərin həyat və sağlamlıqlarına təsir etməklə yanaşı, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı prosesinə ciddi maneə yaradır.

Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minaların düzgün xəritələrini dəfələrlə tələb etməsinə baxmayaraq, Ermənistanın bu xəritələri təhvil verməkdən imtina etməsi bu ölkənin günahsız insanların qətlində maraqlı olduğunu, beynəlxalq humanitar hüququn normalarına etinasız münasibətini bir daha sübut edir.

Ombudsman olaraq, mülki şəxslərin həyatını itirməsinə səbəb olan, regionda sülh quruculuğu prosesinə xələl gətirən bu təxribatı şiddətlə pisləyir, beynəlxalq ictimaiyyəti dəqiq mina xəritələrinin ölkəmizə təqdim edilməsi üçün Ermənistana təzyiq göstərməyə və bu ölkənin törətdiyi mina terroruna reaksiya verməyə çağırıram", - deyə Səbinə Əliyeva vurğulayıb.

# Erməni faşizmi məhvə məhkumdur

## Terrorçuların qanlı əlləri birdəfəlik kəsilməlidir

**Son iki əsrdə Azərbaycan xalqını ard-arda dəhşətli qətliamlar, soyqırımları ilə üz-üzə qoyan erməni faşistləri beynəlxalq cəzasızlıq mühitindən yararlanaraq bu gün də milli düşmənçiliklərini sürdürürlər və xalqımıza qarşı terror əməllərini davam etdirirlər.**

Sülhməramlıların müvəqqəti yerləşdikləri ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış mina terroru nəticəsində sentyabrın 19-da Xocavənddə azərbaycanlı iki mülki şəxsin və dörd polis əməkdaşının həyatını itirməsi, eləcə də sözügedən tarixdə Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində ordumuzun iki hərbi qulluqçusunun yaralanması erməni faşizminin qanlı əllərinin bu günümüzə qədər uzandığının dəhşətli sübutlarıdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ötən gün yaydığı məlumata əsasən, 2023-cü il sentyabrın 19-da saat 03:45 radələrində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) əməkdaşlarının olduğu "Shacman Howo" markalı nəqliyyat vasitəsinin Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən 58-ci kilometrliyində sülhməramlıların müvəqqəti yerləşdikləri ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək partlaması, törədilmiş terror aktı nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 43 saylı idarəsinin əməkdaşları olan mülki şəxslər Fərhad Hüseynağa oğlu Quliyev və Samir Sabiroviç Sadıxovun ölməsi müəyyən olunub.

Eyni zamanda ötən gün Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi (DİN) və DTX-nin Mətbuat xidmətlərinin birgə məlumatında bildirilib ki, DİN əməkdaşlarının olduğu "KamAZ" markalı nəqliyyat vasitəsi Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində



AAYDA əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdikləri ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, DİN-in əməkdaşları olan Asim Knyaz oğlu Camalzadə, Ramil Arif oğlu Şirinov, Seymur Elsevər oğlu Mahmudov və Xəzər Azər oğlu Zamanov hadisə yerində həlak olmuşlar.

### Vətən müharibəsindən indiyə qədər 61 nəfər mina partlayışı nəticəsində həlak olub

İşğal dövründə bir milyondan çox mina basdıraraq torpaqlarımızı ölüm zonasına çevirən təcavüzkar Ermənistan 44 günlük müharibədən sonrakı müddətdə də mənfur xislətindən əl çəkməyərək vətəndaşlarımızı mina partlayışlarının qurbanına çevirir. Kapitulyasiya aktına rəsmən qol çəkdikdən sonra Laçın yolu vasitəsilə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ bölgəsindəki tör-töküntülərinə silah-sursat daşıyan Ermənistan bu xain davranışı ilə ölkəmizə qarşı təxribatlara zəmin yaratdı. İşğaldan azad edilən ərazilərdə aşkarlanan minaların 44 günlük müharibədən sonra istehsal olunması da xalqımızı hədəfə alan erməni faşizmini açıq şəkildə ortaya qoydu.

1991-ci ildən bu günə kimi 4400-ə qədər azərbaycanlı Ermənistanın minalarının qurbanı olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər isə ümumilikdə mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub.

Xatırladaq ki, cari il sentyabrın 11-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğu bağlayaraq mövqelərimiz istiqamətində hərəkət etməyə məcbur etmişdilər.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 12-də "X" hesabında bildirmişdi ki, Ermənistan və qeyri-qanuni marionet xunta rejimi Ermənistanda istehsal olunan minaları "boz zona"nın hər perimetri boyunca yerləşdirməyə davam edir.

Ümumiyyətlə, son dövrlər Ermənistan tərəfinin ölkəmizə qarşı hərbi təxribatlarının intensivləşməsi onu göstərir ki, İrəvan üçtərəfli Bəyanatın şərtlərini pozaraq sülhdən yayınır. İndiyə qədər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ bölgəsindən silahlı tör-töküntülərini çıxarmayaraq Ermənistan iki ölkə arasında normallaşmaya əngəl olduğunu, Azərbaycan ərazilərinə iddia etdiyini açıq şəkildə ortaya qoyur.

Azərbaycan Xarici İşlər Nazirliyinin Xocavənddə mina terroru nəticəsində mülki şəxslərin və Daxili İşlər Nazirliyinin əməkdaşlarının həlak olması barədə mətbuat məlumatında da bildirilir ki, Xocavənd rayonu ərazisində baş verən mina partlayışı bir daha göstərir ki, üçtərəfli Bəyanatın 4-cü bəndini kobudcasına pozaraq Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini hələ də çıxarmayan, hərbi fəaliyyəti və minaların yerləşdirməsini davam etdirən Ermənistanın və onun yaratdığı qondarma rejimin əsas məqsədi bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluqla məşğul olmaqdır.

### Beynəlxalq ictimaiyyət erməni terroruna göz yummamalıdır

O da təəssüfləndirici faktdır ki, Azərbaycan xalqına qarşı davamlı olaraq müharibə cinayətləri törədən erməni qatilləri indiyə qədər beynəlxalq hüquqla cəzalandırılmayıblar. Beynəlxalq cəzasızlıq mühitindən yararlanan təcavüzkar Ermənistan və onun yaratdığı qondarma rejim Azərbaycana qarşı hərbi təxribatlar və terror aktları törədir.

Halbuki Azərbaycan 44 günlük müharibənin üzərindən ötən müddət ərzində sülh müqaviləsinin imzalanması istiqamətində kifayət qədər konstruktiv addımlar atıb, üçtərəfli görüşlərdə fəal iştirak edib. Eyni zamanda Bakı Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində ardıcıl addımlar atır.

Son olaraq Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının paralel olaraq humanitar yüklərin daşınması üçün istifadəyə açılması Azərbaycanın humanizm siyasətinin nümunəsidir. Lakin Ermənistan və qondarma rejim dünyanın gözü qarşısında ölkəmizə qarşı hərbi təxribatlarını davam etdirirlər.

Təəssüf ki, sentyabrın 19-da sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış mina terroru nəticəsində Xocavənddə azərbaycanlı iki mülki şəxsin və dörd polis əməkdaşının həyatını itirməsinə, eləcə də sözügedən tarixdə Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində ordumuzun iki hərbi qulluqçusunun yaralanmasına beynəlxalq təşkilatlardan heç bir reaksiya, Ermənistanın törətdiyi terror əməllərini pisləyən hansısa münasibət görmədik.

### Torpaqlarımıza ərazi iddiası güdənlərin başı əziləcəkdir

Sentyabrın 19-da Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı.

Azərbaycan Müdafiə Nazirliyinin sentyabrın 19-da yaydığı məlumatda bildirilir ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliklərinin təmin olunmasıdır: "Bir daha bildiririk ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır. Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb".

Ötən gün Müdafiə Nazirliyinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirlərinə dair digər məlumatında bildirilir ki, Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunacaq: "Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb".

Göründüyü kimi, Azərbaycan Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı mülki əhalinin təhlükəsizliyi, ərzaq, tibbi vəsait təminatlarını böyük həssaslıqla və humanizm prinsiplərinə uyğun təmin edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Erməni təxribatlarına qətiyyətli cavab

## Məqsəd regionda sabitliyi və təhlükəsizliyi bərpa etmək, lokal hədəfləri sıradan çıxarmaqdır

**Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması, sərhədlərimizdə təxribat xarakterli əməllər törətməsi barədə xəbərlər artıq mütəmadi xarakter almışdı. Məsələ burasındadır ki, bu ölkənin baş naziri Nikol Paşinyanın dünyanın bir sıra ölkələrinin liderləri ilə telefon danışığı zamanı "təcili sülh danışıqlarını davam etdirmək" çağırışları və mətbuata "sülh protokolunu imzalamağa hazır olması" barədə verdiyi açıqlamaları ilə hər gün törətdikləri təxribatla ziddiyyət təşkil edirdi.**



Siyasi ekspertlər Paşinyanın açıqlamalarına münasibət bildirərkən qeyd edirlər ki, onun bəyanatları növbəti erməni riyakarlığından başqa bir şey deyil. Bu açıqlamaları ilə o özünün və ölkəsinin guya hər zaman sülhə hazır olduğunu göstərmək, bəzi dairələrdə bununla bağlı fikir formalaşdırmaq istəyir.

Bəzi ekspertlər isə Ermənistanın hərbi strukturlarında faktiki olaraq ikihakimiyyətliliyin hökm sürdüyünü, Paşinyanın orduya təsir imkanlarının zəiflədiyini də qeyd edirlər.

Dünən Ermənistanın hələ də Qarabağ iqtisadi rayonundan çıxarmadığı silahlı birləşmələrinin və separatçı rejimə tabe olan qanunsuz silahlı dəstələrin daha çox təxribat xarakterli hərəkətlərinin "fəallığı" müşahidə edildi. Xocavənd rayonunun Tağaverd kəndi ərazisində erməni diversiya qrupunun törətdiyi terror aktı nəticəsində mülki şəxslər və polis əməkdaşlarımız tertorçuların basdırdıqları tank əleyhinə minaya düşərək həlak oldular. Bununla kifayətlənməyən terrorçular gün ərzində müxtəlif istiqamətlərdə təxribatlarını davam etdirdilər. Dünən gündüz saatlarında isə Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Ağdam istiqamətində ordumuzun mövqelərinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində iki hərbi qulluqçumuz yaralandı. Törədilən terror aktları, edilən təxribatlar göstərirdi ki, Ermənistan hərbi-siyasi rəhbərliyi əsl niyyətini pərdələmək üçün sülhə hazır olması barədə yalan məlumatlar yayır. Ermənilərin bədnam hərəkətləri onların yenidən qana susadıqlarının, müharibə istədiklərinin sübutu idi.

Nə qədər ki, Qarabağda separatçıların qanunsuz silahlı dəstələri tərk-silah edilməyib, bir o qədər də təhlükə qaçılmaz olaraq qalır. Ermənilərin bədnam hərəkətləri, "sülh haqqında" verdikləri saxta açıqlamalar bu ölkənin indiyə kimi göstərdiyi qeyri-ciddi mövqeyinin dəyişmədiyinin, ölkəmizə qarşı etdiyi növbəti riyakarlığından başqa ciddi bir şey olmadığının sübutudur.

Azərbaycan tərəfi ermənilərin oyun oynadıqlarının, sülh danışıqları altında manipulyasiya etdiklərinin ilk gündən fərqində idi. Bu ölkənin baş nazirinə, hərbi-siyasi rəhbərliyinə dəfələrlə xəbərdarlıq edilsə də, onlara düz yolla getmələri, ağıllı olmaları, riyakarlıq etməmələri üçün çağırışlar edilsə də, nəticə çıxarmadılar. Dəfələrlə səbrimizin də bir sərhədinin olduğunu, ərazimizdə hər hansı bir "boz zona"nın olmasına, qanunsuz erməni silahlı dəstələrinin təxribat xarakterli hərəkətlərinə dözüm göstərməyəcəyimizi bildirsək də, yolunu azmış separatçılar rənglərini daha da bozartdılar. Qanunsuz, özbaşına hərəkətləri ilə bizi torpaqlarımızda qanunu bərpa etməyə məcbur etdilər.

Separatçıların qanunsuz silahlı dəstələrinin Qarabağ iqtisadi rayonunda törətdikləri genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı hərbi birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə dövlətimiz bölgədə lokal xarakterli antiterror tədbirlərini həyat keçirmək məcburiyyətində qaldı. Azərbaycan istər İkinci Qarabağ savaşı, 44 günlük zəfər müharibəsi zamanı olsun, istərsə də hazırda keçirilən lokal antiterror tədbirləri zamanı öz prinsiplərinə sadiqlik nümunəsi göstərərək mülki əhalini və infrastruktur obyektləri hədəfə almır, yalnız legitim hərbi hədəfləri sıradan çıxarır.

Görülən tədbirlər çərçivəsində əsas hədəfimiz Ermənistan silahlı qüvvələrinin ön xətdə və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləridir. Rəşadətli Azərbaycan Ordusu silahların yüksək dəqiqliklə tətbiqi ilə yalnız legitim hərbi hədəfləri sıradan çıxarır. Səsgücləndiricilər vasitəsilə mülkü əhaliyə hərbi hədəflərdən uzaq durmaları barədə xəbərdarlıq edilir, izahedici vərəqələr yayır. Azərbaycanın mövqeyi qəti və birmənalıdır: Ermənistan Qarabağda saxladığı qanunsuz silahlı qüvvələrini qeyd-şərtsiz və tamamilə Azərbaycanın Qarabağ bölgəsindən çıxarmalıdır. Qondarma rejim buraxılmalıdır. Biz Qarabağı cənnətə, Xankəndini gülüstana döndərmək, 30 il dinc sakinlərimizi qorxu, təhdid, silah altında saxlayanlardan azad etmək üçün Qarabağa gedirik. İndi erməni analarının, erməni qız-gəlinlərinin də sayıqlıq göstərib oğullarına, ərlərinə, qardaşlarına silahı yerə qoymaları, ölümdən uzaq durmaları barədə çağırış etmələrinin vaxtıdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# AZƏRBAYCAN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ GÖRÜR

## Azərbaycanın keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyaların dəstək bəyanatı

**Ermənistanın Azərbaycanın Konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyalar dəstək bəyanatı qəbul ediblər.**

AZƏRTAC-a daxil olmuş bəyanatda deyilir:

"44 günlük Vətən müharibəsində qəhrəman ordumuzun qazandığı şanlı zəfərdən sonra Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlər qalmaqda davam etmişdir. Azərbaycan dövlətinin Ermənistana doğru uzanmış sülh əli hər dəfə geri qaytarılmış və bunun qarşılığında Ermənistanın, onun dünyadakı məkrli havadarlarının Azərbaycana qarşı qarayaxma kampaniyası baş qaldırmışdır. Azərbaycan dövlətinin dəfələrlə üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, təxirəsalınmadan sülh müqaviləsinin imzalanması müraciətləri Ermənistan tərəfindən müxtəlif bəhanələrlə rədd edilmişdir.

Üçtərəfli Bəyanatın imzalanmasından keçən 3 il müddətində Azərbaycanın işğaldan azad edilən ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işləri ölkəmizə həm böyük maliyyə hesabına, həm də ən dəhşətlisi - vətəndaşlarımızı itirmək bahasına başa gəlmişdir. Bu müddət ərzində 314 vətəndaşımız mina terrorundan zərər çəkmiş, 61 vətəndaşımız mina terrorunun, onlarca hərbi qulluqçumuz isə erməni qəsbkarlarının açdığı xain atəşin qurbanı olmuşdur.

Bütün bunlara dözümlü yanaşan Azərbaycan Laçın-Xankəndi, sonradan isə Ağdam-Xankəndi istiqamətində hərəkəti təmin etmiş, Azərbaycanın bölgədə yaşayan erməni sakinlərinin təhlükəsizliyi üçün daim xoşməramlı niyyətini ifadə etmişdir. Həmçinin davamlı olaraq həmin bölgədə xidmət aparan Azərbaycan Ordusu tərəfindən erməni sakinlərə baş verə biləcək hərbi əməliyyatlar zamanı onların təhlükəsizliklərinin Azərbaycan tərəfindən təmin olunması ilə bağlı məlumatlar verilmişdir.

Son günlər Qarabağ bölgəsində hələ də qalmaqda davam edən erməni silahlı birləşmələrinin ordumuza və işğaldan azad edilən Şuşada, Zəngilanda, Laçında, Kəlbəcərdə yaşayan və fəaliyyət göstərən Azərbaycan vətəndaşlarına qarşı intensiv şəkildə həyata keçirdiyi təxribatlar günahsız vətəndaşlarımızın həyatına son qoymuşdur. Müxtəlif dövlət qurumlarının işğaldan azad edilən Qarabağ torpaqlarında çalışan işçilərinin, həmçinin onların təhlükəsizliyini qoruyan qəhrəman polislərimizin erməni silahlı birləşmələrinin mina terroruna məruz qalması insanlarımızın böyük hiddətinə səbəb olmuşdur. Belə bir məqamda erməni silahlı birləşmələrinin ordumuzla üzbəüz mövqelərinə əlavə qüvvələr və zirehli texnikalar cəlb etməsi isə onların məkrli niyyətinin daha böyük terror aktları törətmək olduğunu göstərməkdədir.

Biz, Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycanın müzəffər ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə dəstəyimizi ifadə edir, qəhrəman ordumuza zəfər arzulayırıq!

Azərbaycanın siyasi partiyaları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı Vətən müharibəsində olduğu kimi, bu şərəfli işdə də həmrəyliyə, möhtərəm Prezidentimizi və Ali Baş Komandanımızı dəstəkləməyə çağırırıq.

1. Yeni Azərbaycan Partiyası
2. Vətəndaş Həmrəyliyi Partiyası - sədr Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyası - sədr Fəzail Ağamalı
4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - sədr Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyası - sədr Fazil Mustafa
6. Demokratik İslahatlar Partiyası - sədr Asim Mollazadə
7. Vəhdət Partiyası - sədr Tahir Kərimli
8. Azərbaycan Demokratik Maarifçilik Partiyası - sədr Elşən Musayev
9. Milli Cəbhə Partiyası - sədr Razi Nurullayev
10. Haqq Ədalət Partiyası - sədr Əli İnsanov
11. Azərbaycan Xalq Partiyası - sədr Pənah Hüseyn
12. Azərbaycan Demokrat Partiyası - sədr Sərdar Cəlaloğlu
13. Ədalət Partiyası - sədr İlyas İsmayılov
14. Azərbaycan Ümid Partiyası - sədr İqbal Ağazadə
15. Klassik Xalq Cəbhəsi Partiyası- sədr Mirmahmud Fəttayev
16. "Azərbaycan Milli İstiqlal" Partiyası - sədr Arzuxan Əlizadə
17. Müasir Müsavat Partiyası - sədr Hafiz Hacıyev
18. Milli Dirçəliş Hərəkatı Partiyası - sədr Fərəc Quliyev
19. "Böyük Azərbaycan" Partiyası - sədr Elşad Musayev
20. Ağ Partiyası - sədr Tural Abbaslı
21. Azad Vətən Partiyası - sədr Akif Nağı
22. Gələcək Azərbaycan Partiyası - sədr Ağasif Şakiroğlu
23. Yeni Zaman Partiyası - sədr Musa Ağayev"

## Qərbi Azərbaycan İcması qanunsuz erməni silahlılarının Xocavənddə törətdiyi terror aktını pisləyib

**Qərbi Azərbaycan İcması qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənddə yerləşdirilən minanın partlaması ilə törədilən terror aktını kəskin şəkildə pisləyib.**

AZƏRTAC xəbər verir ki, bu barədə İcmanın yaydığı açıqlamada bildirilib.

Qərbi Azərbaycan İcması Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilmiş terror aktlarını kəskin şəkildə pisləyib və həlak olanlara Allahdan rəhmət diləyib, onların ailələrinə dərin hüznlə başsağlığı verib.

"Hesab edirik ki, terror aktlarının törədilməsi üçün azad edilmiş ərazilərimizdə çəkilən yolların seçilməsi heç də təsadüfi deyildir. Bu, əvvəlcədən planlaşdırılmış, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin, keçmiş məcburi köçkünlərin qayıdışının qarşısının alınmasına, qorxu və ruh düşkünlüyünün yaradılmasına hesablanmış xain bir addımdır.

Görünən odur ki, Ermənistan son aylar Azərbaycana qarşı başlatdığı diplomatik və informasiya müharibəsini artıq hərbi müstəviyə keçirir. Ermənistan nəinki bizim öz dədə-baba yurdlarımıza qayıdışımızla əlaqədar Qərbi Azərbaycan İcması ilə dialoq aparmaq niyyətindədir, əksinə Azərbaycana qarşı ərazi iddiasını "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi məqsədilə beynəlxalq mexanizmin təsis olunması" adı altında davam etdirir", - deyə İcmanın açıqlamasında bildirilib.

Qeyd olunub ki, terror aktlarının dünya liderlərinin iştirakı ilə BMT Baş Assambleyasının ümumi müzakirələrinin başlandığı gün törədilməsi Ermənistanın və onun Azərbaycanın suveren ərazilərində yaratdığı oyuncaq xunta rejiminin azğınlaşmasını, reallıq hissini tam itirdiyini göstərir.

"Bu qanlı cinayəti, Ermənistanın Azərbaycana qarşı təcavüzünü mina terroru formasında davam etdirməsi kimi dəyərləndiririk. Terror aktları bir daha göstərir ki, Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazisindən çıxarılmalı, qanunsuz erməni silahlı dəstələri tərk-silah olunmalı və xunta rejimi ləğv edilməlidir.

Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti bölgəni qana çalxalamaq niyyəti güdən bu təhlükəli siyasətdən çəkinmək üçün Ermənistana təzyiq göstərməyə çağırır", - deyə açıqlamada vurğulanıb.

## Mina qurbanları və Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri BMT-yə birgə müraciət ünvanlayıblar

**Mina qurbanları, onların ailə üzvləri və Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri BMT-yə birgə müraciət ünvanlayıblar. AZƏRTAC müraciəti təqdim edir.**

Biz - Ermənistanın və onun hərbi birləşmələrinin Azərbaycan Respublikası ərazisində hələ də mövcudluğunu saxlayan tör-töküntülərinin, oyuncaq hərbi xunta rejiminin mina terrorundan əziyyət çəkən qurbanlar, onların ailə üzvləri, yaxınları, bu sahədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları olaraq, BMT-nin Baş katibi Antonio Quterreşə, BMT Baş Assambleyasının prezidenti Denis Frensisə, BMT-nin İnsan Hüquqları Şurasının prezidenti Vatslav Balekə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkə müraciət edirik.

1991-ci ildən başlayaraq ötən dövrdə Ermənistan Azərbaycan ərazisində 1 milyondan çox mina basdırıb. Bu minaların sayı vaxtilə münaqişənin olduğu ərazidən məcburi köçkün düşən insanların sayını da üstələyir.

İşğaldan azad edilmiş ərazilərdə təmizləmə işləri nəticəsində bu günədək 95 minə yaxın mina və digər partlayıcı qurğular aşkar edilərək zərərsizləşdirilib. Bu, 100 mindən çox insanın ölümdən xilası deməkdir. Azərbaycan dövləti Ermənistanın basdırdığı minaları gecə-gündüz təmizləyir.

Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş, ən çox mina qurbanı olan ölkələr siyahısındadır. Bu günədək Ermənistanın Azərbaycan xalqına qarşı mina müharibəsi nəticəsində 3393 nəfər azərbaycanlı mina hadisəsinin qurbanı olub. Onların 357 nəfəri uşaq, 38 nəfəri qadınlardır.

2020-ci il 10 noyabr Bəyanatından ötən 3 ilə yaxın müddətdə Ermənistan mina terrorunu bir gün də olsun dayandırmayıb. Əvvəlcə Ermənistan hakimiyyəti "mina xəritələri"nin olmasını dandı, daha sonra Azərbaycanın tələbi qarşısında guya, bəzi "mina xəritələri"ni təqdim etdi, ancaq məlum oldu ki, onlar, yalançı, "saxta xəritələr"dir, reallığı əks etdirmir.

2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 19-dək Qarabağ və Şərqi Zəngəzur ərazilərində 314 azərbaycanlı mina partlayışının qurbanı olub. Onlardan 61 nəfəri həlak olub, 253 nəfəri xəsarət alıb. Mina qurbanlarının 149 nəfəri mülki şəxs, 165 nəfəri hərbi qulluqçulardır.

Ermənistanın göstərişi ilə Qarabağdakı hərbi xunta rejimi, onun diversiya qrupları Azərbaycan ərazilərinə hələ də minalar basdırırlar. Son sutka ərzində artıq 6 nəfər bu mina terrorunun qurbanı olub.

Bu, dəhşətdir ki, XXI əsrdə Azərbaycan xalqı öz doğma torpağında mina qurbanları verir.

Biz sizdən soruşuruq, cənab Antonio Quterreş, cənab Denis Frensis, cənab Vatslav Balek, cənab Volker Türk, nəyə görədir bu qurbanlar? Niyə BMT Ermənistanın bu terror fəaliyyətini dayandırmaq üçün hərəkətə keçmir?

Azərbaycan ərazisində nə vaxta qədər oyuncaq hərbi xunta rejimi, "boz zonalar" mövcud olacaq? Bu rejim ləğv olmalı, tərk-silah edilməlidir.

Beynəlxalq qurumlar tez-tez ermənilər üçün Laçın yolundakı keçidin təmin edilməsinin vacibliyi barədə danışırlar. Niyə danışmırlar ki, 2020-ci ildən sonra həmin yoldan Azərbaycan ərazilərini minalamaq üçün nə qədər yeni istehsal edilmiş minalar keçirilib? 2021-ci il istehsalı olan minalar Azərbaycan ərazilərinə necə keçib? Bunlar niyə sual edilmir? Yalnız 2023-cü ilin aprelində Laçın postunun qurulması ilə bu halların qarşısı alındı.

Hamımız yaxşı bilirik ki, bu minalar nə üçündür - köçkünlərin qayıdışını əngəlləmək, onları qorxutmaq, Qarabağda və Şərqi Zəngəzurda başladılan böyük quruculuq işlərinə hər vəchlə mane olmaq.

Hər bir mina qurbanının ailəsi faciə ilə üzləşir. Bu, olduqca ağır dərddir, sağalmaz yaradır. Biz bu yaraları daşıyan insanlarıq.

BMT-dən, digər beynəlxalq təşkilatlardan, dünya dövlətlərindən tələb edirik ki, Ermənistanın bu hərəkətlərinə qiymət versin. Biz sülh və əmin-amanlıq şəraitində dinc yaşamaq istəyirik. Biz minasız dünya istəyirik!

Biz buradan dünyanın bütün tərəqqipərvər insanlarına səslənirik: Ermənistanın Azərbaycana qarşı şiddətlənən mina müharibəsinə, terror fəaliyyətinə etiraz səsinizi ucaldın!

İmzalar:

1. Qasımov Rey - "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri;
2. Səfixanov Hafiz - "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri;
3. Mirzəyev Umud - Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti;
4. Minadan zərərçəkən Məmmədov Zabil Əlastan oğlu;
5. Minadan zərərçəkən Məmmədzadə Vidadi Vəli oğlu;
6. Minadan zərərçəkən Zeynalov Telman Bəbir oğlu;
7. Mina partlayışı nəticəsində həlak olan Əhmədov Yasin Ələsgər oğlunun ailə üzvü Əhmədov Ələsgər Əziz oğlu;
8. Minadan zərərçəkən Əhmədov Asif Ələsgər oğlu;
9. Minadan zərərçəkən Xudiyev Asəf Mürsəl oğlu;
10. Minadan zərərçəkən Babayev Ramil Nazim oğlu;
11. Mina hadisəsi nəticəsində həlak olmuş Yaqubov Fəxrəddin Yaqub oğlunun ailə üzvü Yaqubov Elşən Yaqub oğlu;
12. Mina hadisəsi nəticəsində həlak olmuş Qəhrəmanov Üzeyir Xəlil oğlunun ailə üzvü Qəhrəmanov Məhəmməd Xəlil oğlu;
13. Mina hadisəsi nəticəsində həlak olmuş Hacıyev Şakir Məhərrəm oğlunun ailə üzvü Hacıyeva Şəbnəm Şakir qızı;
14. Mina hadisəsi nəticəsində həlak olmuş Hacıyev Firuddin Məhərrəm oğlunun ailə üzvü Qədimzadə Tural Firuddin oğlu;
15. Mina hadisəsi nəticəsində həlak olmuş Hüseynov Zülfüqar Adışirin oğlunun ailə üzvü Hüseynov Adışirin Zülfüqar oğlu;
16. Mina hadisəsi nəticəsində həlak olmuş Adilzadə Zibeydə Şakir qızının ailə üzvü Səfərov Samir Məhərrəm oğlu;
17. Minadan zərərçəkən Əhmədov Toğrul Vilayət oğlu;
18. Minadan zərərçəkən Əhmədov Orxan Kamil oğlu;
19. Mina hadisəsi nəticəsində həlak olmuş Babayev Zabil Qabil oğlunun ailə üzvü Babayev Fədakar Qabil oğlu;
20. Minadan zərərçəkən Ələkbərov Elgün Mahmud oğlu;
21. Minadan zərərçəkən Mirzəyev Elməddin Tofiq oğlu;
22. Mina hadisəsi nəticəsində həlak olmuş İmanov Bəhruz Telman oğlunun ailə üzvü İmanov Azad Telman oğlu;
23. Minadan zərərçəkən Muxtarov Azad Aydın oğlu;
24. Mina hadisəsi nəticəsində həlak olmuş Quliyev Mehman Allahverdi oğlunun ailə üzvü Quliyev Şahin Allahverdi oğlu;
25. Mina partlayışı nəticəsində həlak olmuş Ələsgərov Müstəqim Allahverən oğlunun ailə üzvü Ələsgərov Şaiq Müstəqim oğlu;
26. Minadan zərərçəkən Verdiyev Niyaməddin Hikmət oğlu;
27. Minadan zərərçəkən Əzimzadə Hafiz Səlim oğlu;
28. Mina hadisəsi nəticəsində həlak olmuş Hüseynov Bayram və Hüseynov Razinin, o cümlədən xəsarət almış Hüseynov Anarın atası, minadan zərərçəkən Hüseynov Akif Muxtar oğlu;
29. Minadan zərərçəkən Məmmədov Emin Həsən oğlu;
30. Minadan zərərçəkən Quliyev Arif Sabir oğlu;
31. Mina hadisəsi nəticəsində həlak olmuş Abışov Sirac Abış oğlunun ailə üzvü Səmədov Şirzad Abış oğlu;
32. Mina hadisəsi nəticəsində həlak olmuş İbrahimov Məhərrəm Əli oğlunun ailə üzvü İbrahimov Əsgər Əli oğlu;
33. Minadan zərərçəkən Aslanov Xanlar Fazil oğlu;
34. Mina hadisəsi nəticəsində həlak olmuş Həmidov Elsəvər Sovet oğlunun ailə üzvü Həmidov Faiq Sovet oğlu;
35. Minadan zərərçəkən Əbilov Mahir Ramiz oğlu;
36. Mina hadisəsi nəticəsində həlak olmuş Qəndiyev Vüsal Firuddin oğlunun ailə üzvü Qəndiyev Firuddin İsmayıl oğlu;
37. Minadan zərərçəkən Vəliyev Ruhin Sultan oğlu;
38. Minadan zərərçəkən Cabbarov Nicat Novruz oğlu;
39. Minadan zərərçəkən Pənahov Rodik Şəmsəddin oğlu;
40. Minadan zərərçəkən Əliyarov Sadir Heydər oğlu;
41. Minadan zərərçəkən Əsgərov Elnur Asif oğlu;
42. Mina hadisəsi nəticəsində həlak olmuş Alışov Oktay Bayram oğlunun ailə üzvü Alışov Nəsib Oktay oğlu;
43. Mina hadisəsi nəticəsində həlak olmuş Mahmudov Bəxtiyar Mahmud oğlunun ailə üzvü Mahmudov Şəhriyar Mahmud oğlu.

## Cozef Borel Avropa İttifaqını gözdən salır

**Qərbi Azərbaycan İcması Avropa İttifaqının ali nümayəndəsi Cozef Borelin qərəzli açıqlamasını qətiyyətlə rədd edir.**

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd edilib ki, əslində, C.Borel xüsusilə bu gün törədilmiş mina terrorunu pisləməli, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Azərbaycanın suveren ərazilərindən çıxarılmasına, qanunsuz erməni silahlı dəstələrinin tərk-silah olunmasına, oyuncaq xunta rejiminin ləğv edilməsinə çağırmalı idi.

"C.Borel belə mövqe ilə Avropa İttifaqını Azərbaycan cəmiyyətində gözdən salır", - deyə məlumatda vurğulanıb.

## Almaniyalı nazirin qərəzli açıqlaması davamlı sülhün bərqərar edilməsinə əngəl törədir

**Qərbi Azərbaycan İcması Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Annalena Berbokun qərəzli açıqlamasını qətiyyətlə rədd edir.**

Bu barədə AZƏRTAC-a İcmadan bildirilib. Qeyd olunub ki, Almaniya Xarici İşlər naziri bu gün törədilmiş mina terrorunu pisləməli, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Azərbaycanın suveren ərazilərindən çıxarılmasına, qanunsuz erməni silahlı dəstələrinin tərk-silah olunmasına, oyuncaq xunta rejiminin ləğv edilməsinə çağırmalı idi.

"Bundan əlavə, xatırladırıq ki, Almaniya Ermənistandan azərbaycanlıların total etnik təmizləməyə məruz qalmasına və Ermənistan hökumətinin onların geri qayıtmasına imkan verməməsinə hələ də münasibət bildirməyib.

Nazir Berbokun məsələlərə dini və etnik təəssübkeşlik prizmasından baxması yanlışdır, davamlı sülhün və insan hüquqlarına hörmətin bərqərar edilməsinə əngəl törədir", - deyə İcmanın məlumatında vurğulanıb.

## Qarabağ qanunsuz silahlı dəstələrdən təmizlənir

*Əvvəli 1-ci səh.*

Separatçıların döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrinin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməlləri Azərbaycanın Qarabağ iqtisadi regionundakı "boz zona"dan gələn təhlükələrin zərərsizləşdirilməsi və konstitusiya quruluşunun bərqərar edilməsi üçün lokal xarakterli antiterror tədbirləri həyata keçirilməsi ilə bağlı qərar qəbul etməsinə səbəb oldu.








Sentyabrın 19-da günorta saatlarında başlanan antiterror tədbirləri çərçivəsində yalnız ermənilərin legitim hərbi obyektləri dəqiq silahlarla hədəfə alındı və sıradan çıxarıldı. Azərbaycan Müdafiə Nazirliyi yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırış etdi.

Nazirliyin yaydığı məlumatda bildirildi ki, bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır. Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olundu. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradıldı.

Əməliyyat tədbirləri nəticəsində Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri, separeatçılara məxsus P-18 radiolokasiya stansiyası (RLS), Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci müdafiə briqadasına məxsus sursat anbarlarından biri, sığınacaq və döyüş texnikası, mülki infrastrukturumuzu hədəfə alan Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus top qurğusu bölmələrimizin sərrast atəşi nəticəsində məhv edildi, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus hərbi təyinatlı radiotexniki qovşaq zərərsizləşdirildi.

Bütün zamanlarda mülki əhalini hədəfə alan Ermənistan yenə də öz xislətinə sadiq qalaraq Şuşa şəhərini iri çaplı silahlardan, o cümlədən minaatanlardan atəşə tutdu. Törədilən terror hücumu nəticəsində bir mülki şəxs həlak oldu.

Azərbaycan Ordusu, cəsur Azərbaycan əsgəri isə 44 günlük İkinci Qarabağ müharibəsində olduğu kimi bu əməliyyat tədbirlərində də heç bir mükli obyektə, mülki əhaliyə ziyan vurmadı.

Bir sözlə, Azərbaycanın öz suveren ərazisində həyata keçirdiyi kompleks tədbirlər Ermənistan Silahlı Qüvvələrinin hələ də bölgədə olan bölmələrinin hərbi infrastrukturunun məhv edilməsinə, Ermənistan hərbçilərinin tərk-silahı və neytrallaşdırılmasına yönəlib.

Lokal xarakterli əməliyyat tədbirlərinin dayandırılmasına gəlincə isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası məlumat yayaraq separatçılara yeganə yolu göstərib - antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək.

Bir sözlə, Azərbaycan separatçıların yaratmaq istədikləri "boz zona"da bütün hərbi dəstələrin və hərbi obyektlərin məhv edilməsi, separatçıların tərk-silah olunması, konstitusiya normalarının tətbiqi, bölgədə əmin-amanlığın bərqərar edilməsi, təhlükəsizliyin təmin olunması, həmin ərazidə yaşayan insanların Azərbaycan cəmiyyətinə reinteqrasiyası, qanunlara uyğun formada idarəçiliyin formalaşdırılması, bütövlükdə regionun inkişafı ilə bağlı bütün tədbirləri həyata keçirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# AZƏRBAYCAN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ GÖRÜR

## Dünya mediası Azərbaycanın Qarabağ bölgəsində başlatdığı antiterror tədbirlərindən yazmaqda davam edir

**Dünyanın müxtəlif ölkələrinin tanınmış KİV-i Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə bağlı xəbərlər yayımlayıb.**




AZƏRTAC xəbər verir ki, məqalələrdə Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə başladılan lokal xarakterli antiterror tədbirlərinin məqsədinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi olduğu bildirilib.

**"Daily Pakistan"** nəşrində yayımlanan xəbərdə Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirləri həyata keçirməyə başladığı qeyd olunub, Azərbaycanın dövlət qurumlarının, o cümlədən Müdafiə Nazirliyinin antiterror tədbirləri ilə bağlı məlumatları diqqətə çatdırılıb. Azərbaycan Müdafiə Nazirliyinin məlumatında lokal xarakterli antiterror tədbirləri çərçivəsində yalnız legitim hərbi obyektlərin və hərbi infrastrukturun yüksək dəqiqlikli silahlarla hədəfə alındığının və sıradan çıxarıldığının bildirildiyi vurğulanıb.

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən atəş vasitələrinin yaşayış yerlərinin yaxınlığında yerləşdirilməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa dair çağırış etdiyi də qeyd olunub.

Xəbərdə bildirilib ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra üçtərəfli Bəyanat imzalansa da, Ermənistan həmin dövrdən sonra dəfələrlə atəşkəs rejimini pozub. Həmçinin qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələrinin və Qarabağdakı separatçıların Azərbaycanın həmin ərazilərdə inşa etdiyi yolda və tuneldə basdırdığı minaların partlaması nəticəsində mülki şəxslər və polis əməkdaşları həlak olublar.

ABŞ-nin **CNBC** televiziyasının elektron versiyasında yayımlanan məqalədə də Azərbaycanın Qarabağ bölgəsində konstitusiya quruluşunu bərpa etmək və Ermənistan silahlı qüvvələrinin birləşmələrini ərazidən çıxarmaq üçün antiterror tədbirlərinə başladığı qeyd olunub. Bildirilib ki, Azərbaycanın Müdafiə Nazirliyi yaydığı bəyanatda lokal xarakterli tədbirlərin məqsədinin Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi olduğu bildirilib. Qeyd edilib ki, Azərbaycan mülki şəxslərin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradıb.

Almaniyanın **"Süddeutsche Zeitung"** qəzetində yayımlanan məqalədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatlarına istinad edilib. Bildirilir ki, Azərbaycan bölgədə konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirir. Antiterror tədbirlərinin məqsədi 2020-ci ildə baş vermiş sonuncu müharibədən sonra əldə edilmiş atəşkəs razılaşmasına əsasən, erməni hərbi birləşmələrinin bölgədən çıxarılmasını təmin etməkdir.

**Alman Radiosu**nun saytında yerləşdirilən məqalədə qeyd edilib ki, antiterror tədbirlərinin məqsədi Ermənistan silahlı qüvvələrinin Qarabağdakı birləşmələrinin tərk-silah edilməsi, onların bölgədən tamamilə çıxarılmasıdır. Həmçinin Azərbaycan tərəfindən Qarabağın erməni əhalisinin təhlükəsiz əraziyə təxliyəsi üçün humanitar dəhlizlərin və məntəqələrin yaradıldığı qeyd olunub.

Məqalədə Azərbaycanın işğaldan azad edilən ərazilərdə mina partlayışı nəticəsində dörd polis əməkdaşının və iki mülki şəxsin həlak olmasına görə Ermənistan silahlı qüvvələrinin birləşmələrini və Qarabağdakı terrorçuları ittiham etdiyi bildirilib.

Böyük Britaniyanın **"The National News"** nəşrində yayımlanan xəbərdə Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinad edilərək, antiterror tədbirlərinin əsas məqsədinin Ermənistan silahlı qüvvələrinin Qarabağdakı birləşmələrinin tərk-silah edilməsi, onların bölgədən tamamilə çıxarılması olduğu vurğulanıb.

**"Telegraph"** qəzetində yayımlanan məqalədə bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyi yaydığı məlumatda mülki əhali və mülki infrastruktur obyektlərinin hədəfə alınmadığını, yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflərin sıradan çıxarıldığını bəyan edib. Xəbərdə həmçinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlamasına da yer verilib. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalinin nümayəndələri ilə Yevlax şəhərində görüşə hazır olduğu diqqətə çatdırılıb. Həmin açıqlamada "Antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır", - tələbi xüsusi vurğulanıb.

Rusiya mətbuatı da Azərbaycan Ordusunun antiterror tədbirlərinə geniş yer ayırıb. **"Moskovskiy Komsomolets"** qəzetində dərc olunan məqalədə bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyi lokal xarakterli tədbirlərin Qarabağda sülhün bərqərar olunması və Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması məqsədilə aparıldığını bəyan edib.

**"İzvestiya", "Forbes.ru"** nəşrlərində yerləşdirilən yazılarda isə Azərbaycan Ordusunun yalnız Ermənistan silahlı qüvvələrinin legitim hərbi hədəflərinə və hərbi obyektlərinə zərbələr endirdiyi, mülki əhalinin və obyektlərin hədəfə alınmadığı vurğulanıb.

**"Kommersant"** və **"RBK"**nın yaydığı xəbərlərdə Azərbaycanın antiterror tədbirlərinə başlamasının Ermənistan tərəfindən Azərbaycan ərazilərinin mütəmadi atəşə tutulması və ərazilərin yenidən minalanması ilə əlaqələndirildiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan Ermənistan ordusunun Qarabağdakı qanunsuz hərbi birləşmələrini tərk-silah etmək, azad edilmiş ərazilərə qayıtmış dinc əhalinin təhlükəsizliyini təmin etmək niyyətindədir.

İspaniyanın **"EFE", "Rtve", "Notimerica", "Infobae",** İtaliyanın **"Libero Quotidiano"** portallarında yayımlanan informasiyalarda Azərbaycan Müdafiə Nazirliyinin altı nəfərin, o cümlədən dörd polis əməkdaşının terror aktları nəticəsində həlak olmasından sonra antiterror tədbirləri həyata keçirdiyi qeyd edilib. Xəbərdə Azərbaycan Prezidenti Administrasiyasının erməni silahlı dəstələrinin ağ bayraq qaldırmayana, bütün silahları təhvil verməyənə və qanunsuz rejim özünü buraxmayana qədər antiterror tədbirlərinin davam etdiriləcəyi bildirilib. Yazılarda həmçinin Azərbaycanın Qarabağın erməni əhalisi ilə danışıqlara hazır olduğu da qeyd edilib. Məqalələrdə Azərbaycan Müdafiə Nazirliyinin mülki əhalinin təxliyəsi üçün humanitar dəhlizlər yaratdığı da xüsusi vurğulanıb.

**akhbaralaan.net** saytı Azərbaycanın Müdafiə Nazirliyinin məlumatlarına istinadla yazır ki, bölgədə lokal antiterror tədbirlərinə başlanılıb və bu tədbirlər çərçivəsində yüksək dəqiqliyə malik silahlardan istifadə edilir. Qeyd olunur ki, separatçıların terror aktları nəticəsində Azərbaycan tərəfdən 4 polisin və mülki vətəndaşların həlak olmasından sonra antiterror tədbirlərinə start verilib. Azərbaycan Ermənistandan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən dərhal çıxarmağı və separatçı rejimin ləğvini tələb edir.

Həmçinin diqqətə çatdırılır ki, bölgədəki vəziyyət barədə Azərbaycandakı diplomatik nümayəndəliklər məlumatlandırılıb. Brifinqdə Azərbaycanın Ermənistan tərəfinin təxribat xarakterli addımları ilə üzləşdiyi, Qarabağ bölgəsində keçirilən "prezident seçkiləri"nin həmin təxribatlardan biri olduğu vurğulanıb.

**24.ae** portalında qeyd olunub ki, Azərbaycan Qarabağda 6 azərbaycanlının mina partlayışı nəticəsində həlak olmasından sonra antiterror əməliyyatına başlayıb. "Tədbirlər çərçivəsində və yüksək dəqiqlikli silahlardan istifadə etməklə Ermənistan silahlı qüvvələrinin bölmələrinin ön xətdə yerləşən mövqeləri və dərinlikdə yerləşən uzaqmənzilli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi obyektləri yararsız hala salınıb", - deyə Azərbaycan Müdafiə Nazirliyinə istinadla vurğulanıb.

**cnn.gr, typos-i.gr, liberal.gr, capital.gr, naftemporiki.gr, skai.gr** kimi saytlarda da qeyd olunub ki, Azərbaycan Qarabağ bölgəsinin Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərində antiterror tədbirlərinə başlayıb. Azərbaycanın Müdafiə Nazirliyinə istinad olunaraq bildirilib ki, cəbhə xəttində, eləcə də dərinlikdə hərbi infrastrukturun məhv edilməsi üçün yüksək dəqiqliyə malik silahlardan istifadə olunur. Azərbaycanın Müdafiə Nazirliyi həmçinin bəyan edib ki, mülki şəxslər separatçıların hərbi obyektlərinə yaxınlaşmasınlar.

Bundan əvvəl Azərbaycanın 6 vətəndaşı qeyri-qanuni erməni silahlılarının basdırdıqları minaya düşərək həlak olub.

Saytlarda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevə istinadla bildirilib ki, Azərbaycan Qarabağdakı antiterror tədbirlərinin əsas məqsədlərini yerinə yetirməyə yaxındır, bəzi hərbi hədəflər zərərsizləşdirilib.

Azərbaycanın Prezident Administrasiyası bəyan edib ki, Azərbaycan bir sıra şərtləri yerinə yetirəcəkləri təqdirdə, bölgədə yaşayan ermənilərlə Yevlaxda görüşməyə hazırdır. Lakin antiterror tədbirlərini dayandırmaq üçün qeyri-qanuni erməni hərbi birləşmələri ağ bayraq qaldırmalı, bütün silahları təhvil verməli və qeyri-qanuni rejimi ləğv etməlidir.

"Qarabağda erməniəsilli vətəndaşların hüquqlarına və təhlükəsizliyinə Azərbaycan Konstitusiyasının və beynəlxalq öhdəliklərinin tələb etdiyi kimi hörmətlə yanaşılacaq", - deyə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib.

**1tv.ge, szeretlekmagyarorszag.hu, telex.hu, radiofarda.com** saytları da bölgədəki vəziyyəti diqqətdə saxlayırlar. Onların yaydıqları informasiyalarda qeyd olunur ki, Qarabağda son mina partlayışları nəticəsində 6 nəfər həlak olduqdan sonra Azərbaycan antiterror tədbirinə başlayıb.

Saytlarda Azərbaycan Müdafiə Nazirliyinin bəyanatına istinadla deyilir: "Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun Qarabağ bölgəsindəki mövqelərinin sistemli şəkildə atəşə tutulması, ərazilərin davamlı olaraq minalanması, mühəndis-döyüş mövqelərinin təkmilləşdirilməsi istiqamətində işlərin aparılması, eləcə də səngərlərin sayının artması son aylarda gərginliyin daha da artmasına səbəb oldu.

Cəbhə xəttində və dərinlikdə yüksək dəqiqlikli silahların tətbiqi ilə həyata keçirilən əməliyyatlar çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövqeləri, onların uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi obyektləri məhv edilir. Bir daha bildiririk ki, mülki şəxslər və mülki infrastruktur hədəf deyil, yalnız qanuni hərbi hədəflər vurulur. Rusiya Federasiyasının sülhməramlı kontingentinin komandanlığına və Türkiyə-Rusiya Monitorinq Mərkəzinin rəhbərliyinə görülən işlər barədə məlumat verilib".

Qardaş ölkənin mətbuatı da Qarabağdakı vəziyyət barədə son məlumatları paylaşırlar. Məlumatlarda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin son açıqlamalarına geniş yer verilib, Azərbaycanın Müdafiə Nazirliyinin məlumatları, antiterror tədbirlərinin gedişatı geniş işıqlandırılıb.

**"Hürriyet", "Turkiye Gazetesi", "Posta", "AHABER", "TRT Avaz"** media orqanlarının internet portallarında bildirilib ki, Azərbaycan Qarabağ üçün gözlənilən addımı atdı. Azərbaycan Müdafiə Nazirliyi Qarabağda antiterror tədbirlərinə başladığını açıqlayıb. Buna səbəb son mina terroru oldu. Separatçıların basdırdıqları minaların partlaması nəticəsində Azərbaycan vətəndaşları həlak oldular. Bundan sonra Azərbaycan Müdafiə Nazirliyi Qarabağda konstitusiya quruluşunun bərpası məqsədilə antiterror tədbirinə başladığını açıqladı.

Materiallarda separatçıların hərbi mövqelərinin Azərbaycan Ordusu tərəfindən sərrast atəşlə vurulmasını əks etdirən videolar da yerləşdirilib.

## Dünya mediası ermənilərin Azərbaycana qarşı mina terrorundan yazıb




**Dünyanın bir çox nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan ərazilərində ermənilərin mina terrorunun davam etməsi nəticəsində son günlər azərbaycanlı polislər və mülki şəxslərin həlak olması barədə materiallar dərc edib.**

AZƏRTAC xəbər verir ki, Rusiyanın **TASS** agentliyi, **"Arqumentı i faktı", "Moskovskiy komsomolets"** qəzetləri və digər mətbuat orqanları azərbaycanlı polis əməkdaşlarının Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olması haqqında Azərbaycan DİN, Baş Prokurorluq və DTX-nin birgə məlumatını yayıblar. Rusiya mediası vurğulayıb ki, Azərbaycanın hüquq-mühafizə orqanları baş vermiş insidenti terror aktı adlandırıb və Cinayət Məcəlləsinin bir neçə maddəsi, o cümlədən terrorizm maddəsi üzrə cinayət işi başlanılıb.

Ərəb mediası da ermənilərin mina terroru haqqında materiallar dərc edib. **"Əl Ərəbiyə", "Əl Əhram", "Şuruk", "Əl Qüds"** və ərəb ölkələrinin digər qəzet və portallarında dərc edilən xəbərlərdə oxucuların diqqətinə çatdırılıb ki, rəsmi Bakı erməni sabotaj qruplarının Azərbaycan ərazilərində basdırdığı minaların altı azərbaycanlının, o cümlədən dörd polis əməkdaşının həlak olmasına səbəb olduğunu bəyan edib. Materiallarda qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev ermənilərin mina terrorunun azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasında başlıca əngəl olduğunu dəfələrlə bildirib. Xəbərlərdə vurğulanıb ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu hadisələri terror aktı kimi qiymətləndirib və müvafiq maddələrlə cinayət işi açılıb.

Ermənilərin mina terroru nəticəsində azərbaycanlı polislərin və mülki şəxslərin həlak olması barədə xəbərlər Avropa ölkələrinin KİV-lərində də dərc olunub. Fransanın **"Radio France Internationale",** İtaliyanın **"Corriere della Sera", "Quotidiano dei contribuenti"**, Slovakiyanın **"hn.24", "Teraz", "TvNoviny", "Dennikn"**, Britaniyanın **"The Guardian",** Portuqaliyanın **"CNNportuqal", "Cignoticias"** qəzet və portallarında dərc olunmuş materiallarda bildirilir ki, içərisində Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşlarının olduğu nəqliyyat vasitəsi Xocavəndin Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb. Baş vermiş partlayışlar nəticəsində iki mülki şəxs və nazirliyin dörd əməkdaşı həlak olub. Xəbərlərdə diqqətə çatdırılır ki, Azərbaycan tərəfi ermənilərin bu terror aktlarının Ermənistanla sülh prosesinə ciddi zərbə vurduğunu bəyan edir, həmçinin İrəvandan qanunsuz hərbi birləşmələrini Qarabağdan dərhal çıxarmağı tələb edir.

Almaniyanın **DW** telekanalının saytında dərc olunmuş yazıda diqqətə çatdırılıb ki, qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən törədilən və altı azərbaycanlı, o cümlədən dörd polis əməkdaşı və iki mülki şəxsin həlak olması ilə nəticələnən mina terroru aktından sonra Azərbaycan tərəfi öz ərazisində antiterror tədbirləri görməyə məcbur olub. **"Politico", "Firstpost"** xəbər portalları da azərbaycanlı polislərin və mülki şəxslərin erməni təxribatı nəticəsində həlak olmasının gərginliyi artırdığını qeyd ediblər.

ABŞ-nin **"Barrons"** internet nəşri də Ermənistanın Azərbaycan ərazilərində mina terrorundan bəhs edib, o cümlədən son terror aktı nəticəsində azərbaycanlı polislərin və mülki şəxslərin həlak olduğunu bildirib. Yazıda qeyd olunub ki, sülh prosesinin davam etdiyi bir şəraitdə Azərbaycanla Ermənistan arasında gərginlik artır, eyni zamanda Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələri və separatçıların fəallaşdığı müşahidə olunur. "İki müharibənin baş verdiyi Qarabağ ərazisinin böyük hissəsi ermənilər tərəfindən minalanıb və Prezident İlham Əliyev bildirib ki, mina problemi səbəbindən məcburi köçkünlərin 2020-ci ildə işğaldan azad olunmuş bu ərazilərə köçürülməsi prosesi gecikir", - deyə materialda qeyd olunub.

Ermənistanın Azərbaycan ərazilərində törətdiyi mina terroru haqqında material Hindistanın **"The Hindu"** qəzetində də dərc edilib. Yazıda qeyd olunub ki, azərbaycanlı polis əməkdaşları və mülki şəxslərin həlak olması bölgədə vəziyyəti daha da gərginləşdirir, həmçinin Azərbaycanla Ermənistan arasında sülh prosesinə ciddi zərər verir.

Ukraynanın nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan ərazilərində ermənilərin mina terrorunun davam etməsi nəticəsində son günlər azərbaycanlı polislərin və mülki şəxslərin həlak olması barədə materiallar dərc edib.

**"Ukrinform"** dövlət informasiya agentliyi, **"Korespondent", "Polit-Dumka"** və digər xəbər portallarında yayılan məqalələrdə azərbaycanlı polis əməkdaşlarının Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olduğu diqqətə çatdırılır. Qeyd olunur ki, terror aktı ilə əlaqədar Azərbaycan təhlükəsizlik orqanları araşdırmaya başlayıb.

Həmçinin vurğulanır ki, İkinci Qarabağ müharibəsindən sonra basdırılan minaların partlaması nəticəsində həlak olanların ümumi sayı 61 nəfərə çatıb. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev işğal olunmuş ərazilərin minalardan təmizlənməsinin 30 ilə yaxın davam edəcəyini və 25 milyard dollara başa gələcəyini açıqlayıb.

## DİN-in əməkdaşlarına qarşı törədilmiş terror aktları ilə bağlı cinayət işi açılıb

Sentyabrın 19-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "KamAZ" markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 1994-cü il 5 fevral təvəllüdlü Asim Knyaz oğlu Camalzadə, 1987-ci il 8 iyul təvəllüdlü Ramil Arif oğlu Şirinov, 1991-ci il 12 iyul təvəllüdlü Seymur Elsevər oğlu Mahmudov və 1998-ci il 21 iyul təvəllüdlü Xəzər Azər oğlu Zamanov hadisə yerində həlak olublar.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin birgə məlumatında bildirilib.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.10, 120.2.11, 120.2.12 (mütəşəkkil dəstə tərəfindən, ümumi təhlükəli üsulla, təkrar, zərər çəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar, milli ədavət və düşmənçilik niyyəti ilə iki və ya daha çox şəxsi terrorçuluqla əlaqədar öldürmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldəetmə, saxlama, daşıma və gəzdirmə) və digər maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə birgə istintaq-əməliyyat tədbirləri həyata keçirilir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

## DİN-in şəxsi heyəti ölkənin bütün ərazisində gücləndirilmiş iş rejimində fəaliyyət göstərir

**Bu gün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) dörd əməkdaşı terrora məruz qalıb. Bu da ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, konstitusiya quruluşunun bərpa edilməsi məsələsini zəruri edib.**

AZƏRTAC xəbər verir ki, bunu DİN-in mətbuat xidmətinin rəisi, polkovnik-leytenant Elşad Hacıyev deyib. Bu gün Azərbaycan Respublikasında başlayan lokal xarakterli antiterror tədbirlərin davam etdirildiyini deyən E.Hacıyev bildirib ki, bu tədbirlər nəzərə alınaraq ölkənin bütün ərazisində DİN-in şəxsi heyəti gücləndirilmiş iş rejimində fəaliyyət göstərir: "Respublikada mümkün təxribat, təhdid, hər hansı hüquqazidd tədbirlərin qarşısının alınması ilə bağlı DİN-in şəxsi heyətinə göstərişlər verilib. Azərbaycan cəmiyyətinə antiterror tədbirləri çərçivəsində dezinformasiya xarakterli məlumatlardan çəkinmələrini tövsiyə edirik. Bu hallara qarşı cəmiyyətin hər bir üzvü diqqətli və məsuliyyətli olmalıdır. Azərbaycanda bəzi sosial şəbəkə seqmentləri məhdudlaşdırılıb. Bu da ondan irəli gəlir ki, təhdidlər, dezinformasiyalar var idi. Qarşı tərəf təkcə Azərbaycana silahlı formada müqavimət göstərmir, həm də informasiya cəbhəsində ölkəmizlə müharibə əhval-ruhiyyəsinə köklənmiş şəkildə sosial şəbəkə seqmentlərini idarə edir. Azərbaycan cəmiyyətinə çağırışımız ondan ibarətdir ki, diqqətli və məsuliyyətli olsun, yalnız rəsmi dövlət qurumlarının verdiyi məlumatlara inansın, bunun əsasında paylaşım etsinlər. Azərbaycan Respublikasının ərazisində olan qeyri-qanuni erməni silahlı qüvvələrinin birləşmələrinə qarşı tədbirlər davam edir. Buna paralel olaraq ictimai təhlükəsizlik tədbirləri birgə aparılır ki, Azərbaycan cəmiyyətində hər hansı xoşagəlməz hallar baş verməsin. Bütün cəmiyyəti birgə olmağa, qayda və tələblərə əməl etməyə çağırırıq".

## Baş Prokurorluq media nümayəndələri və sosial şəbəkə istifadəçilərinə müraciət edib

**"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən terror əleyhinə aparılan əməliyyatlar zamanı terror aktları barəsində ictimaiyyətə məlumatlar əməliyyat qərargahının rəhbərinin və ya əməliyyat qərargahının ictimaiyyətlə əlaqələr üzrə məsul nümayəndəsinin müəyyən etdiyi formada və həcmdə verilir.**

Bu barədə Baş Prokurorluğun AZƏRTAC-a verilən məlumata görə, aşağıdakı məlumatların yayılmasına yol verilmir:

1) terror əleyhinə əməliyyatların aparılması taktikası və texniki üsulları haqqında;
2) terror əleyhinə aparılan əməliyyatlar zonasında və ya bu zonanın hüdudlarından kənarda olan insanların həyatına və sağlamlığına təhlükə yaradan və terror əleyhinə əməliyyatların aparılmasına əngəllik törədən məlumatlar haqqında;
3) terrorçuluğa bəraət qazandıran və ya onların təbliğinə xidmət edən məlumatlar haqqında;
4) terror əleyhinə aparılan əməliyyatlarda iştirak edən, habelə bu əməliyyatların aparılmasına kömək edən şəxslər haqqında.

Terror aktları, eləcə də terror əleyhinə əməliyyatlarla bağlı yayılması qadağan edilən məlumatın internet informasiya ehtiyatında yerləşdirilməsi inzibati xəta hesab edilir (İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsi) və fiziki şəxslər 500 manatdan 1000 manatadək, vəzifəli şəxslər min manatdan 1500 manatadək məbləğdə inzibati cərimə edilir, yaxud 1 ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

# Heydər Əliyev Sarayında çoxdan gözlənilən "Məhəbbət əfsanəsi" baletinin təqdimatı olub





Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Azərbaycanın Xalq artisti Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin uzun müddətdir gözlənilən təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, dünyanı fəth edən baletin nümayişi ilə həm də 18 sentyabr - Milli Musiqi Günündə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının açılış mərasimi olub.







"Məhəbbət əfsanəsi" iki gün - sentyabrın 18-də və 19-da Heydər Əliyev Sarayında təqdim edilir. Bu möhtəşəm təqdimat ecazkar musiqi, səhnə quruluşu və tərtibatı ilə Milli Musiqi Günündə tamaşaçılar üçün ən gözəl hədiyyədir.

Bu münasibətlə Heydər Əliyev Sarayının foyesində sərgi də təşkil edilib. Sərgidə "Məhəbbət əfsanəsi" baletinin indiyədək yayımlanan afişaları və Arif Məlikovun yaradıcılığına dair foto və məlumatlar nümayiş olunub.

Qeyd edək ki, Bakıdakı bu musiqi bayramına - "Məhəbbət əfsanəsi" baletinin təqdimatını işləmək üçün digər ölkələrdən qonaqlar da gəliblər. Onların arasında İtaliyanın ən böyük və məşhur konsert məkanlarından olan "Arena di Verona"nın bədii rəhbəri Stefano Trespidi, dünyaca məşhur FAZIOLI royallarını istehsal edən fabrikin yaradıcısı Paolo Fazioli, Rusiyanın məşhur balet artisti, "Məhəbbət əfsanəsi"ndə Fərhad rolunun ifaçılarından biri olmuş Nikolay Tsiskaridze də var.

Rusiyanın Xalq artisti, dünyaşöhrətli balet artisti Nikolay Tsiskaridze tamaşanın nümayişindən əvvəl "Məhəbbət əfsanəsi"ndə oynadığı roldan danışaraq deyib: "Mən bu tamaşanın əsas ifaçılarından biri olmuşam. Böyük Teatrda işlədiyim dövrdə "Məhəbbət əfsanəsi" baletində rol almaq çətin idi. Çünki bu, bir tərəfdən virtuoz, digər tərəfdən isə ən vacib ulduzların çıxış etdiyi tamaşadır. Bu rolu çox erkən yaşda oynamaq mənim üçün çox qürurverici idi. Bir neçə dəfə bəstəkarın (Arif Məlikov - red.) gözü qarşısında rəqs etmək şansım oldu. Bu, mənim üçün ən böyük mükafatlardan biri idi. Bu gün burada olmağımın səbəbi bənzərsiz bəstəkara olan sevgimdir. Hesab edirəm ki, bu, dünya musiqi mədəniyyətində balet üçün yazılmış möhtəşəm partituralardan biridir. Çox xoşbəxtəm ki, bu balet Arif Məlikovun vətənində - Azərbaycanda səhnəyə qoyulur".

Arif Məlikovun tarixdə böyük bir iz qoyduğunu qeyd edən Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Təranə Muradova "Məhəbbət əfsanəsi" baletinin dünyanın məşhur teatrlarında səhnəyə qoyulduğunu söyləyib. "Azərbaycan xoreoqrafiya sənətində bir çox istedadlı balet ustaları və xoreoqraflar var. Ümid edirəm ki, bu sənət həmişə inkişaf edəcək və dünyada öz sözünü deyəcək", - deyə o əlavə edib.

"Məhəbbət əfsanəsi"nin Heydər Əliyev Sarayındakı budəfəki təqdimatına uzun müddətdir hazırlıqlar görülürdü və artıq bir aydan çox idi məşqlər gedirdi.

Tamaşa 1961-ci ildə olduğu kimi, yenə də məşhur rəssam Simon Virsaladzenin eskizləri əsasında səhnələşdirilib. Belə ki, tarixi təqdimat üçün Heydər Əliyev Fondu tərəfindən Simon Virsaladzenin orijinal eskizləri əsasında 200-dən çox kostyum, həmçinin dekorasiya və rekvizitlər hazırlanıb.

Unudulmaz təqdimatda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppasının və Azərbaycan Dövlət Rəqs Ansamblının artistləri ilə yanaşı, xarici teatrlardan dəvət olunan solistlər də yer alıb.

Xalq rəssamı Ömər Eldarov "Məhəbbət əfsanəsi" baleti barədə təəssüratlarını bölüşərək deyib: "Bu möhtəşəm balet istedadlı ustaların səyləri nəticəsində ərsəyə gəlib və qısa zamanda uğur qazanıb. Arif Məlikov dünyanı öz yaradıcılığı ilə tanış etmək üçün yaşayırdı və o, bunu bacardı".

Təqdimat mərasimində iştirak etməkdən şərəf hissi duyduğunu bildirən Çinin ölkəmizdəki səfiri xanım Qo Min Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu deyib. "Əminəm ki, baleti izlədiyim zaman Azərbaycan mədəniyyətinin incəliklərini hiss edəcəyəm. Bu tamaşanı yenidən görməkdən çox məmnunam. Ümid edirik ki, gələcəkdə "Məhəbbət əfsanəsi" çinli tamaşaçılara da nümayiş olunacaq", - deyə səfir qeyd edib.

Gecəni Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazov açıblar.

F.Bədəlbəyli çıxışında Arif Məlikovun məşhur əsərinin Azərbaycanda səhnələşdirilməsini çoxdan arzuladığını vurğulayaraq bildirib: "1962-ci ildə Bakıda ilk dəfə "Məhəbbət əfsanəsi" baleti səhnəyə qoyulanda mənim 16 yaşım var idi. O zaman bütün məşqlərdə iştirak etmişdim. Bu balet böyük uğur qazandı və demək olar bütün ölkələrdə nümayiş olundu. Heydər Əliyev Fonduna və Mədəniyyət Nazirliyinə çox minnətdaram ki, illər sonra bu tamaşa yenidən Bakıda nümayiş olundu".

Sonra tamaşaçılara "Məhəbbət əfsanəsi" baleti təqdim edilib.

Səhnədə şahzadə Məhmənəbanunu Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı, Prezident mükafatçısı Ayan Eyvazova, Fərhadı Rusiyanın məşhur Böyük Teatrının premyeri, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı Denis Rodkin, Şirini isə Böyük Teatrın aparıcı solisti, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı Mariya Vinoqradova ifa ediblər.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazov səhnə əsəri haqqında fikirlərini jurnalistlərlə bölüşüb: "Bu gün bizim üçün tarixi bir gündür. Belə bir tədbirin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürümü bildirirəm. Azərbaycan mədəniyyətinə verdikləri dəstəyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdaram. Əminəm ki, unudulmuş bir əsərin yerli truppamızın iştirakı ilə Azərbaycan səhnəsinə qayıdışı sonuncu olmayacaq".

Arif Məlikov "Məhəbbət əfsanəsi" baletini tanınmış türk şairi Nazim Hikmətin "Fərhad və Şirin" dramı əsasında yazdığı librettoya bəstələyib. Nazim Hikmət isə əsəri görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından ilhamlanaraq qələmə alıb. Arif Məlikov faciəli sevgi və fədakarlıqdan bəhs edən əsərə musiqi şəklində yeni həyat qazandırıb. Bəstəkar 3 pərdə, 7 şəkildən ibarət əsər üzərində 1958-ci ildən işləməyə başlayıb və onu iki ilə bitirib.

"Məhəbbət əfsanəsi" baletinin premyerası 1961-ci il martın 23-də Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrı), bir qədər sonra isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində keçirilib. Haqlı olaraq şedevr adlandırılan bu baletin quruluşçu rejissoru Yuri Qriqoroviçdir. Bakı premyerası isə Qriqoroviçin köməkçiləri baletmeyster-rejissor Oksana Tsvetnitskayanın və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri, Rusiyanın Əməkdar artisti Ruslan Proninin quruluşunda təqdim edilir. Əsər ilk dəfə səhnəyə qoyulanda dirijoru maestro Niyazi olub. Heydər Əliyev Sarayında isə "Məhəbbət əfsanəsi"nin əsrarəngiz musiqisi Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğunda Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında təqdim edilib.

"Məhəbbət əfsanəsi" baleti bu günədək müxtəlif ölkələrin 60-dan çox teatrında dəfələrlə görkəmli baletmeysterlərin quruluşunda oynanılıb. Səhnə əsəri ABŞ, Almaniya, Avstriya, Bolqarıstan, Böyük Britaniya, Braziliya, Çexiya, Estoniya, Finlandiya, Fransa, İtaliya, Qazaxıstan, Misir, Özbəkistan, Polşa, Rumıniya, Slovakiya, Türkiyə, Ukrayna, Yaponiya və digər ölkələrdə rəğbətlə qarşılanıb.

Tamaşanın dirijoru, Xalq artisti Yalçın Adıgözəlov səhnə əsəri ilə bağlı təəssüratını bölüşərək bildirib ki, bu gün belə bir möhtəşəm səhnədə Üzeyir Hacıbəyli adına XV Beynəlxalq Musiqi Festivalının açılışı oldu. "Uzun illər bu hadisənin arzusunda idik. Təəssüf olsun ki, bu gün Arif müəllim aramızda deyil, amma əminəm, onun ruhu şaddır. Bu dünyaşöhrətli əsər bundan sonra bizim səhnəmizdə daim yaşayacaq.

Bu gün burada çox böyük bir heyət - 500-ə yaxın sənətkar çalışdı. Bizim fəxr edəcək bir çox əsərlərimiz var, amma "Məhəbbət əfsanəsi" bütün dünyanı fəth edib. Bu gün hamı üçün həyəcanlı, məsuliyyətli bir gün, eyni zamanda böyük bir bayram oldu", - deyə Xalq artisti vurğulayıb.

Səhnə əsərinin quruluşçu baletmeysterləri Yuri Qriqoroviçin assistentləri Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri Ruslan Pronin və Oksana Tsvetnitskaya "Məhəbbət əfsanəsi" baletinin ilk dəfə Rusiyada səhnəyə qoyulduğunu və 1961-ci ildə Leninqrad Teatrında baş tutan ilk tamaşa ilə Azərbaycan arasındakı əlaqəni vurğulayaraq dedilər: "Məhz buna görə də həm Azərbaycan, həm də Rusiya balet rəqqasları ilə işləmək ideyası yarandı. Bu həmçinin qarşılıqlı təcrübə mübadiləsi üçün mühüm imkandır".

Tamaşanın əsas rollarının ifaçıları Rusiyanın məşhur Böyük Teatrının premyeri, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı Denis Rodkin və Böyük Teatrın aparıcı solisti, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı Mariya Vinoqradova jurnalistlərə müsahibələrində səhnə əsəri ilə bağlı fikirlərlə bölüşüblər. "Tamaşa çox yaxşı keçdi. Şadam ki, Denislə Bakıya gəldim, bu möhtəşəm tamaşanın premyerasını rəqs etdim", - deyə Mariya Vinoqradova qeyd edib.

Bakıya səfər etməsindən məmnunluğunu bildirən Denis Rodkin isə qeyd edib: "Bakıda olmaq mənim üçün çox xoşdur. Çünki bura görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun vətənidir. 2014-cü ildə Yuri Qriqoroviç "Məhəbbət əfsanəsi"nin yeni redaksiyası üzərində çalışarkən onunla şəxsən işləmək şansım oldu. Onu da qeyd etmək istərdim ki, Bakıda orkestr fərqli səslənir. Çünki doğma divarlar arasında səslənir. Azərbaycan tamaşaçısı çıxışımızı yüksək qiymətləndirdi".

Qeyd edək ki, Arif Məlikovun şah əsəri olan "Məhəbbət əfsanəsi"nin "Heydər Əliyev İli"ndə təqdim olunması təsadüfi deyil. 2023-cü il dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü, görkəmli bəstəkar Arif Məlikovun isə 90 illik yubileyidir. Ümummilli Lider Heydər Əliyev görkəmli bəstəkar Arif Məlikovu bir sənətkar və insan kimi yüksək dəyərləndirirdi. Arif Məlikov isə Ümummilli Lider Heydər Əliyevə sevgi və ehtiramını öz yaradıcılığında da əks etdirib və bəstəkarın "Əbədiyyət" adlı 8-ci simfoniyası Ulu Öndərə ithaf olunub.

# Heydər Əliyev Fondu tərəfindən bölgələrdə məktəb binaları istifadəyə verilib

## Quba



Sentyabrın 19-da Heydər Əliyev Fondunun təhsil sahəsindəki layihələri əsasında Qubada inşa olunan iki yeni məktəb binası istifadəyə verilib.

Pirvahid kənd tam orta məktəbin yeni binası 320, Bağbanlı qəsəbə tam orta məktəbin yeni binası isə 360 şagird yerlikdir.

Ramin Dadaşov adına Pirvahid kənd tam orta məktəbin yeni binasının açılış mərasimində Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin, Quba Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd sakinləri iştirak ediblər.

Tədbirdə respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov, Elm və Təhsil Nazirliyinin müşaviri Simuzər Feyzullayeva, Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov, Milli Məclisin deputatı Vahid Əhmədov çıxış edərək, müəllim, şagird və valideynləri yeni tədris ilinin başlanması və təhsil müəssisəsinin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkədə və rayonda gedən sosial-iqtisadi inkişafdan, təhsil sahəsində əldə olunan uğurlardan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədə gördüyü ardıcıl tədbirlərdən danışıblar.

Bildirilib ki, Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr həyata keçirməklə təhsilin inkişafına öz töhfəsini verir. Fond yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir.

Tədbirdə şəhid atası Abdul Novruzov, şəhid qardaşı Ramin Dadaşov, məktəbin müəllimi Günay Babayeva, X sinif şagirdi Nargül Allahverdiyeva çıxış edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Heydər Əliyev Fondu tərəfindən Quba rayonu Ramin Dadaşov adına Pirvahid kənd tam orta məktəbin yeni binası 2023-cü ildə tikilib. İkimərtəbəli təhsil ocağında 220 yerlik akt zalı var. Birinci mərtəbədə idman zalı, yeməkxana, ibtidai sinif və texnologiya otaqları, ikinci mərtəbədə akt zalı, informatika, kimya, fizika, biologiya laboratoriya, hərbi hazırlıq, tibb otaqları, kitabxana və inzibati otaqlar mövcuddur.

Məktəbin direktoru Elmar Hüseynov bildirib ki, təhsil ocağı üçün müasir tələblərə cavab verən, hər cür şəraiti olan yeni binanın tikilməsi şagirdlərin, müəllim və valideynlərin də böyük sevincinə səbəb olub. "Bizim köhnə məktəb 1947-ci ildə tikilmişdi. Cəmi 8 otaqdan ibarət binada dərs keçmək üçün şərait yox idi. Bu gün istifadəyə verilən yeni məktəbimizdə isə şagirdlərin keyfiyyətli təhsil alması üçün hər cür şərait var. Bu məktəb Prezidentimiz İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın təhsilə qayğısının bariz nümunəsidir. Məktəb binası Heydər Əliyev Fondunun yeni dərs ilinin başlanğıcında kollektivimizə dəyərli hədiyyəsidir", - deyə Elmar Hüseynov söyləyib.

Sonra tədbir iştirakçıları Rövşən Mütəllimov adına Bağbanlı qəsəbə tam orta məktəbin yeni binası ilə tanış olublar.

Bildirilib ki, Heydər Əliyev Fondunun bu ilin yanvarından qəsəbədə 360 yerlik yeni məktəbin tikintisi ilə bağlı apardığı işlər artıq yekunlaşıb, təhsil ocağı şagird və müəllimlərin ixtiyarına verilib.

## Tovuz



Rayonun Aşağı Öysüzlü kəndindəki A.Hüseynov adına tam orta məktəb 1930-cu ildə inşa olunduğundan istifadəyə artıq yararsız vəziyyətdə idi. Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 2023-2024-cü tədris ilində Aşağı Öysüzlü kəndi üçün 360 şagird yerlik yeni məktəb binasını inşa edərək istifadəyə verib.

Üçmərtəbəli məktəb 3 korpusdan ibarətdir. Təhsil müəssisəsi zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar Heydər Əliyev Fondunun "Təhsilə dəstək" proqramı çərçivəsində əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb.

Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq yeni təhsil ocaqları tikilərək və ya əsaslı bərpa edilərək istifadəyə verilir. Bu baxımdan 2023-2024-cü tədris ili də istisna olmayıb. Həmişə olduğu kimi, fondun müəllim və şagirdlərə yeni tədris ili hədiyyəsi paytaxtla yanaşı, Azərbaycanın regionlarını da əhatə edir. Yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə müəllim və şagirdlərin istifadəsinə verilir. Tədris ili ərzində Heydər Əliyev Fondu tərəfindən inşa və təmir edilən daha 10 məktəbin açılışı nəzərdə tutulur.

Heydər Əliyev Fondunun dəstəyi ilə yeni təhsil ocaqlarının istifadəyə verilməsi ölkədə gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına daha bir töhfədir.

Yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən fond "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramların icrası ilə təhsil sahəsinə öz dəstəyini göstərir, müasir standartlara cavab verən təhsil kompleksləri yaradır, tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur. Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunaraq istifadəyə verilib.

Fondun təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılmasına, məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə verdiyi töhfələr bu il də yüzlərlə şagirdin, müəllim və valideynin sevincinə səbəb olub.

## Ağstafa




Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin daha bir ünvanı Ağstafa rayonunun Vurğun qəsəbəsi olub. Yeni inşa edilən Habil Əzizov adına tam orta məktəb müəllim və şagirdlərin istifadəsinə verilib.

Qəsəbədəki H.Əzizov adına tam orta məktəb 1972-ci ildə inşa olunmuşdu. Bina keyfiyyətli tədris prosesi üçün artıq köhnəlmişdi. Bunu nəzərə alaraq Heydər Əliyev Fondunun bu ilin mart ayında yeni məktəb binasının inşası üçün başladığı işlər artıq yekunlaşıb. 420 şagird yerlik üçmərtəbəli təhsil ocağı dörd korpusdan ibarətdir. Sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, qızlar və oğlanlar üçün əmək təlimi otaqları zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilib.

Məktəbdə zəngin kitabxana, yeməkxana, akt və idman zalları, eləcə də açıq idman meydançası müəllim və şagirdlərin ixtiyarına verilib.

*AZƏRTAC*

# Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib

**Sentyabrın 19-da Milli Məclisin Gənclər və idman komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevin təklifi ilə Ümummilli Lider Heydər Əliyevin və erməni diversantlarının törətdikləri terror aktı nəticəsində həlak olan polis əməkdaşlarının və mülki şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Komitə sədri xatırladıb ki, bu il Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Adil Əliyev "Heydər Əliyev İli" çərçivəsində Azərbaycanda və xarici ölkələrdə keçirilən tədbirlərdən söz açaraq, parlament rəhbərliyinin, o cümlədən komitə üzvlərinin bu tədbirlərdə fəal iştirak etdiyini bildirib.

Adil Əliyev diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabat və komitənin 2023-cü ilin payız sessiyası üçün iş planı daxil edilib.

Komitə sədri əvvəlcə 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Gənclər və idman komitəsində görülən işlər barədə danışıb. Bildirib ki, ötən sessiyalarda komitə üzvləri səmərəli fəaliyyət göstərib. Bu müddətdə komitənin 2 iclası keçirilib, həmin iclaslarda 5 məsələyə baxılıb. Komitədə baxılan qanun layihələri haqqında məlumat verən komitə sədri ötən dövrdə keçirilən tədbirlər və 2 Fevral Gənclər Gününə həsr edilmiş "Heydər Əliyev - müasir Azərbaycan gənclər siyasətinin banisi" mövzusunda ictimai dinləmə barədə danışıb. Diqqətə çatdırılıb ki, ötən sessiyada komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə 1182 məktub, müraciət və sənəd daxil olub.

Bildirilib ki, komitənin sədri və üzvləri hesabat dövründə Vətən müharibəsi qaziləri, şəhid ailələrinin üzvləri ilə görüşlərdə, həmçinin Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlərdə iştirak ediblər.

2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Milli Məclisin Gənclər və idman komitəsində ümumilikdə 437 vətəndaş qəbulu keçirilib. Hesabat dövründə komitə sədri və üzvləri bir sıra ölkədaxili və beynəlxalq səviyyəli tədbirlərdə iştirak ediblər, təmsil olunduqları parlamentlərarası əlaqələr üzrə işçi qrupları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər keçirib, müzakirələr aparıb, ictimaiyyəti maraqlandıran məsələlərlə bağlı fəal mövqe nümayiş etdiriblər.

Sonra iclasda komitənin 2023-cü ilin payız sessiyası üçün iş planına baxılıb. Qeyd edilib ki, qarşıdakı sessiyada büdcə zərfinin və komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi nəzərdə tutulub.

Eyni zamanda iş planında "Heydər Əliyev İli" çərçivəsində tədbirlərin keçirilməsi, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə görüşlər, vətəndaşların qəbulu, ərizə və şikayətlərlə işin təşkili və digər məsələlər nəzərdə tutulub. Həmçinin "Ulu Öndər Heydər Əliyev və Azərbaycan idman siyasəti" və "Qərbi Azərbaycana qayıdışda gənclərin rolu" mövzularında dinləmələr iş planında əks olunub.

Çıxış edən Gənclər və idman komitəsinin üzvü Etibar Əliyev iş planı ilə bağlı bir sıra təkliflər səsləndirib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə deputatların işinin səmərəliliyini artırmaq üçün hazırlanmış mobil tətbiq layihəsinin parlament Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsinin müdiri Şahin Həsənov tərəfindən təqdimatı keçirilib.

Müzakirələrin sonunda Gənclər və idman komitəsinin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlərlə bağlı hesabatı məqbul sayılıb və komitənin 2023-cü ilin payız sessiyası üçün iş planı təsdiqlənib.

İclasda komitənin sədr müavini Şahin İsmayılov, üzvləri Mahir Abbaszadə, Ülvi Quliyev, Cavid Osmanov, Könül Nurullayeva, Sevinc Hüseynova, Vüqar İskəndərov, Jalə Əhmədova və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Ovçuluq fəaliyyəti ilə bağlı qanunvericilik aktları təkmilləşdiriləcək

**Sentyabrın 19-da Milli Məclisin Aqrar siyasət komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Tahir Rzayev 2023-cü ilin "Heydər Əliyev İli" elan edildiyini xatırladıb və Heydər Əliyevə ümumxalq məhəbbətinin sonsuz və tükənməz olduğunu vurğulayıb.**



Komitə sədrinin təklifi ilə iclas iştirakçıları Ulu Öndərin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Sonra Tahir Rzayev bildirib ki, iclasın gündəliyinə 3 məsələ daxil edilib. Bunlar 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Milli Məclisin Aqrar siyasət komitəsində görülən işlər barədə hesabat, komitənin 2023-cü il payız sessiyası üçün iş planının layihəsi və "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsidir (birinci oxunuş).

Komitə sədri ötən sessiyalarda Aqrar siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edərək bildirib ki, həmin dövrdə komitənin 10 iclası keçirilib, 23 məsələyə baxılıb. Müzakirə olunan sənədlər barədə məlumat verən Tahir Rzayev vurğulayıb ki, hesabat dövründə komitə üzvləri deputatlıq fəaliyyəti ilə bağlı üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəliblər. Qeyd edilib ki, deputatlar Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkədə və beynəlxalq miqyasda keçirilən tədbirlərdə yaxından iştirak ediblər.

Diqqətə çatdırılıb ki, Milli Məclisin yaz və növbədənkənar sessiyaları ərzində komitənin ünvanına daxil olan məktub, təklif, ərizə və şikayətlərlə bağlı müvafiq tədbirlər görülüb.

Komitənin qarşıdakı sessiya üçün iş planı ilə bağlı bildirilib ki, layihədə komitəyə daxil olacaq qanun layihələrinin və digər sənədlərin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub. Həmçinin Vətən müharibəsi şəhidlərinin ailələrinin ziyarəti, qazilərlə, müharibə iştirakçıları ilə, seçicilərlə görüşlər və digər tədbirlər nəzərdə tutulub.

Gündəliyin sonuncu məsələsi ilə bağlı komitə sədri bildirib ki, "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Respublikasının ərazisində ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili, onların fəaliyyətinin effektli həyata keçirilməsi, ovçuluq fəaliyyəti ilə bağlı sahəni tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Məsələlərin müzakirəsində deputatlar Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov, İqbal Məmmədov, Aydın Hüseynov, Müşfiq Cəfərov çıxış ediblər, rəy və təkliflərini bildiriblər.

Komitə üzvləri 2023-cü ilin yaz və növbədənkənar sessiyaları ərzində Aqrar siyasət komitəsində görülmüş işləri qənaətbəxş sayıblar, qarşıdakı payız sessiyası üçün komitənin iş planını təsdiqləyiblər, "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*"Azərbaycan"*

# Səhiyyə komitəsində 3 dinləmənin keçirilməsi planlaşdırılır

**Sentyabrın 19-da Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Əhliman Əmiraslanovun təklifi ilə erməni terrorçuların törətdikləri növbəti terror aktı nəticəsində həlak olan polis əməkdaşlarının və mülki şəxslərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.**



Komitə sədri iclasın gündəliyinə 2 məsələnin - Milli Məclisin 2023-cü il yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatın və Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planının daxil edildiyini bildirib.

Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, hesabat müddətində komitənin 10 iclası keçirilib, həmin iclaslarda 20 məsələ müzakirə edilib. Komitə sədri baxılan məsələlər haqqında fikirlərini söyləyib, qəbul olunan qanunların əhəmiyyətindən, xüsusən "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunun tətbiqi sayəsində bu sahədə əldə olunan nailiyyətlərdən danışıb.

Hesabat dövründə komitəyə daxil olan müraciətlərdən bəhs edən Əhliman Əmiraslanov sayı 300-ə yaxın olan bu ərizə və şikayətlərdə, həmçinin vətəndaşlar və seçicilərlə keçirilən görüşlərdə qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Gündəliyin ikinci məsələsi olan Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planı ilə bağlı Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin, o cümlədən büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub. Həmçinin "Tibbi tullantıların idarə edilməsi", "Qanunvericilik aspektində ailə sağlamlığı və dəyərləri" (Ailə, qadın və uşaq məsələləri komitəsi ilə birgə) və "Autizmin tibbi-sosial aspektləri və sosial-müdafiə tədbirləri" (Əmək və sosial siyasət komitəsi ilə birgə) mövzularında 3 dinləmənin keçirilməsi planlaşdırılıb.

Müzakirələrdə Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri Sədaqət Vəliyeva, Məlahət İbrahimqızı, Kəmaləddin Qafarov, Kamilə Əliyeva, Soltan Məmmədov, Müşfiq Məmmədli və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər, gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər. Millət vəkilləri ötən dövrdə komitənin məhsuldar fəaliyyət göstərdiyini söyləyiblər, qarşıdakı sessiya üçün iş planı ilə bağlı təkliflərini səsləndiriblər. Deputatlar həmçinin səhiyyə sahəsinin bəzi aktual məsələlərinə dair qeydlərini də diqqətə çatdırıblar.

Komitə üzvləri Milli Məclisin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatı qənaətbəxş hesab ediblər, komitənin 2023-cü ilin payız sessiyası üçün iş planını təsdiqləyibələr.

*"Azərbaycan"*

# "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanuna dəyişiklik ediləcək

**Sentyabrın 19-da Milli Məclisin Mədəniyyət komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.**



Komitə sədri Qənirə Paşayeva sessiyanın başlaması münasibətilə təbriklərini çatdırıb, deputatlara gələcək fəaliyyətlərində uğurlar diləyib.

Komitə sədri Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatı diqqətə çatdıraraq, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda erməni separatçılarının əvvəlcədən quraşdırdıqları minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsinin sıradan çıxdığını və mülki şəxslərin həlak olduğunu bildirib. O, Daxili Qoşunların hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçuların həlak olduğunu və yaralandığını söyləyib. İclas iştirakçıları torpaqlarımızın bütövlüyü naminə həlak olan şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra iclasda gündəlikdəki məsələlərə baxılıb. Qənirə Paşayeva, əvvəlcə, 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə komitədə görülən işlər barədə hesabatı təqdim edib. Komitə sədri bildirib ki, hesabat dövründə komitədə 5 iclas və 2 dinləmə keçirilib. İclaslarda 8 məsələ, o cümlədən 5 qanun layihəsi müzakirə olunub. O, müzakirə olunan məsələlər arasında bəzi qanunlara dəyişikliklərin edilməsi ilə bağlı qanun layihələrinin olduğunu, bununla yanaşı, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsinin də nəzərdən keçirildiyini deyib.

Qənirə Paşayeva bildirib ki, ötən sessiyalar zamanı komitənin ünvanına daxil olmuş məktub, ərizə və şikayətlər baxılaraq, müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib. Vətəndaşlarla mütəmadı olaraq görüşlər keçirilib.

Komitə üzvləri Cavanşir Feyziyev və Əziz Ələkbərli ölkənin mədəniyyət həyatında baş verən hadisələrlə bağlı bəzi fikirlərini açıqlayıblar.

Sonra iclasda komitənin cari ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsinə baxılıb. Qeyd olunub ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin, "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsinin müzakirəyə çıxarılması, bir sıra tədbirlərin keçirilməsi planlaşdırılır.

Komitə sədrinin müavini Fazil Mustafa, komitə üzvü Nizami Cəfərov, deputat Razi Nurullayev mədəniyyət sahəsinin inkişafı, bu sahəyə aid qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Mədəniyyət komitəsində cari ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabat məqbul hesab olunub, payız sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi təsdiq edilib.

Gündəliyin növbəti məsələsini - "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri bildirib ki, sənəddə uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur.

Qeyd edilib ki, layihəyə əsasən, "Mədəniyyət haqqında" qanuna yeni maddənin əlavə edilməsi nəzərdə tutulub. Əlavədə deyilir ki, qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər "Nağdsız hesablaşmalar haqqında" qanuna uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.

Komitə üzvü Nizami Cəfərov bəzi qeydlərini bildirdikdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda çıxış edən deputat Ülviyyə Həmzəyeva ölkədə mədəniyyət sahəsinin inkişafı istiqamətində atılan addımlardan, gələcəkdə nəzərdə tutulan tədbirlərdən danışıb.

İclasın sonunda Milli Məclisdə informasiya texnologiyalarının imkanlarından səmərəli istifadənin təmin edilməsi məqsədilə Parlament Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsi tərəfindən hazırlanmış yeni mobil tətbiqin təqdimatı keçirilib. Yeni proqram təminatı barədə həmin şöbənin müdiri Şahin Həsənov məlumat verib.

İclasda komitə üzvləri Ülviyyə Ağayeva, Novruzəli Aslanov, Mixail Zabelin də iştirak ediblər.

*"Azərbaycan"*

# İtaliyalı senator Qarabağda keçirilmiş qondarma "prezident seçkiləri"ni qınayıb

**İtaliya Respublikası Senatının İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri senator Marko Skurria Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimliyə məktub ünvanlayıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, italiyalı senator Cənubi Qafqazda cərəyan edən prosesləri yaxından izlədiklərini bildirib, regionda Azərbaycan və Ermənistan xalqlarının faydalanacağı ədalətli və dayanıqlı sülhə nail olunmasına dair diləklərini çatdırıb, İtaliyanın Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə dəstəklədiyini, ölkəmizin suverenliyi və ərazi bütövlüyü məsələsində həmişə aydın, ardıcıl və beynəlxalq hüquqa əsaslanan mövqe sərgilədiyini qeyd edib.

Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"ni tanımadıqlarını bəyan edən Marko Skurria belə qanunsuz hərəkətlərin beynəlxalq hüququn norma və prinsiplərini ciddi şəkildə pozduğunu və beynəlxalq ictimaiyyət tərəfindən pislənməli olduğunu vurğulayıb.

Məktubun sonunda regionda sülh gündəminə və normallaşma prosesində göstərilən səylərə, habelə etnik erməni sakinlərinin Azərbaycan Respublikasının konstitusiyası çərçivəsində reinteqrasiyasına qəti dəstək ifadə edilib.

*"Azərbaycan"*

# Azərbaycanlı deputat AŞ PA-nın uşaqlar üzrə alt komitəsinin iclasına sədrlik edib

**Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sosial məsələlər, səhiyyə və dayanıqlı inkişaf komitəsinin uşaqlar üzrə alt komitəsinin və sağlam ətraf mühit naminə Parlamentlərarası Əlaqələr Şəbəkəsinin birgə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Cəmiyyətin transformasiyasını gücləndirilmiş ekoloji insan hüquqları ilə müşayiət etmək" mövzusunda iclasa AŞ PA-nın sosial məsələlər, səhiyyə və dayanıqlı inkişaf komitəsinin uşaqlar üzrə alt komitəsinin sədri, qurumdakı Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva sədrlik edib.

Alt komitənin iclasında avropalı parlamentarilərlə yanaşı, müxtəlif ölkələrdən olan və məktəblərdə ətraf mühit məsələlərini koordinasiya edən mütəxəssislər, eləcə də tədqiqatçılar iştirak ediblər.

İclasda innovativ qanunvericilik təklifləri irəli sürülüb. Həmçinin cəmiyyətin transformasiyası dövründə ekoloji insan hüquqlarının gücləndirilməsi, ətraf mühit, enerji və iqtisadi narahatlıqlar sahələrində çağırışlara cavab vermək üçün dərhal tətbiq edilə bilən modernləşmə yolları müzakirə edilib.

# Heydər Əliyev və "Əsrin müqaviləsi"



**Azərbaycanın əldə etdiyi uğurların, nailiyyətlərin bünövrəsində, təbii ki, ciddi iqtisadi irəliləyiş və onun nəticəsi olan güclü iqtisadiyyat durur. Bu iqtisadi inkişafın həlledici məqamlarından biri ölkəmizin həyata keçirdiyi uğurlu enerji siyasətidir. Məhz bu uğurlu enerji siyasətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Gələcəyə hesablanmış bu uğurlu neft strategiyasının da təntənəsi şübhəsiz ki, "Əsrin müqaviləsi"dir.**

Xəzər hövzəsinin dünyanın ən nəhəng neft və qaz sənayesi mərkəzlərindən biri kimi yenidən yüksəlişi 1994-cü ildə, yəni Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən cəmi üç il sonra, bir mühüm geoiqtisadi və strateji əhəmiyyət kəsb edən müqavilənin imzalanması ilə başlamışdır. Bu, ölkənin Xəzərdəki nəhəng neft və qaz ehtiyatlarının işlənməsinə investisiya qoymağa dəvət edilmiş iri xarici neft şirkətləri ilə Azərbaycanın bağladığı ilk saziş idi. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi üçün imzalanmış həmin müqaviləyə sonradan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev "Əsrin müqaviləsi" adını verdi. Bu müqavilənin həm Azərbaycan, həm də dünya üçün əhəmiyyətini bundan daha yaxşı ifadə etmək mümkün deyildi. Bu adla həm də Azərbaycanın yeni müstəqillik tarixinin və neft-qaz sənayesinin dirçəlişi üçün uzun yolun başlandığı ifadə olunurdu.

"Əsrin müqaviləsi" ilə Azərbaycanın neft-qaz tarixinin və enerji siyasətinin yeni mərhələsinin əsası qoyuldu və sonrakı illərdə müxtəlif yataqlar üzrə yeni beynəlxalq sazişlərin imzalanması üçün yol açıldı.

"Əsrin müqaviləsi" ölkəmizin neft-qaz sektoruna müasir standartların gətirilməsi, uğurlu praktikaların tətbiqi, yeni nəsil neft-qaz mütəxəssislərinin formalaşması və beləliklə də, Azərbaycanın dünyanın müasir enerji mərkəzlərindən birinə çevrilməsinə səbəb oldu.

"Əsrin müqaviləsi" bütövlükdə Azərbaycanın beynəlxalq birliyə inteqrasiyası və müasir dövrdə dünya dövlətləri sırasında öz layiqli yerini tutmasında mühüm rol oynadı. Bu, ölkəmizin ilk müstəqil enerji müqaviləsi idi və Azərbaycan onun sayəsində yenidən dünyanın əsas enerji təchizatçılarından birinə çevriləcəyinə inanaraq onu imzalamışdı. Amma imzalanmış müqavilənin nəticəsi gözlənildiyindən də möhtəşəm oldu. Bu müqavilə Azərbaycanın enerji strategiyasının əsasını qoydu və ölkənin ən yeni tarixində bir dönüş nöqtəsinə çevrildi.

"Əsrin müqaviləsi"nin taleyinə sonradan digərlərinin də uğurla gedə biləcəyi bir yol açmaq yazılmışdı. Azərbaycan bütün keçmiş Sovet İttifaqı respublikaları arasında regiondakı qonşuları ilə yaxşı münasibətlərini qoruyub saxlamaqla yanaşı, öz enerji sektorunda geniş beynəlxalq iştirakı təmin edən ilk ölkə oldu.

Bu müqavilə həmin dövrdə xeyli riskli hesab edilən bir şəraitdə bp kimi beynəlxalq neft şirkətlərinin neft və qaz ehtiyatlarının işlənməsi üçün əminliklə iri sərmayələr yatırmasına imkan verən hüquqi sənəd nümunəsinə çevrildi.

İqtisadiyyat, idarəetmə konsepsiyaları, proseslər, texnologiya və infrastruktur dəyişikliyə ehtiyac duyurdu. Eyni zamanda yeni biznes mühitinin yaradılması zərurəti var idi. Bu baxımdan Azərbaycan mühüm əhəmiyyət kəsb edən dəyişiklikləri həyata keçirmək üçün strateji hədəfləri müəyyənləşdirdi və qısa müddət içərisində xarici tərəfdaşların irihəcmli investisiyalara başlaması üçün zəruri olan etimadı təmin etdi. Həmçinin bu investisiyalar ölkədə güclü və dayanıqlı iqtisadiyyatın qurulmasına dəstək verərək bu cür layihələrin həyata keçirilməsinə imkan yaradacaqdı. Bütün bunları nəzərə alaraq ölkə xarici investorların Azərbaycanda mənfəətli və dayanıqlı biznes qurması üçün əlverişli mühit yaratmaq əzmində olduğunu qətiyyətlə bəyan etdi.

Həmin dövrdə Azərbaycanın gələcəyi üçün dövlətin strateji hədəfləri, qurduğu planlar çoxşaxəli idi. Bu planlar ölkənin əlverişli, şəffaf və ardıcıl tətbiq olunan biznes, hüquq və vergi mühiti qurmaq, keçmiş uğurlu təcrübəyə əsaslanan və biznes sahəsinə bacarıqlı insanları yönəldən təhsil sistemi yaratmaq, dürüstlüyü və keyfiyyətli iş icrasını dəyərləndirən hökumət və biznes mədəniyyəti formalaşdırmaq məqsədilə qətiyyətli addımlar atmaq niyyətini əhatə edirdi.

Bütün bunlar yalnız xarici investisiyaları cəlb etməklə və onun rentabelliyi və dayanıqlığı üçün güclü təməl yaratmaqla kifayətlənməyib, həm də yerli biznesin inkişafına təkan verəcəkdi.

Bu günün zirvəsindən geriyə baxdıqda görərik ki, "Əsrin müqavilə"sinin imzalanması və uğurlu icrasının, eləcə də enerji layihələrimizin müvəffəqiyyətlə reallaşmasına imkan verən möhkəm təməllərin kökündə Ümummilli Lider Heydər Əliyev tərəfindən bir sıra ardıcıl strateji qərarların zamanında verilməsi durur.

1993-cü ildə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin ilk növbədə verdiyi qərarlardan biri məhz o dövrə qədər xarici neft şirkətləri ilə aparılmış danışıqların ləğv edilməsi oldu. Bundan sonra enerji müqavilələri ətrafında danışıqlara yenidən baxıldı. Yenidən xarici şirkətlər dəvət olundu və danışıqlar bərpa olundu.

Bu qərarın əhəmiyyətini və ölkənin gələcək inkişafını şərtləndirəcək bir müqavilənin hazırlanması üçün vacibliyini həmin dövrdə baş verən prosesləri işıqlandıran müəlliflərin əksəriyyəti etiraf edir.

Neft və qaz sənayesi tarixi ilə bağlı bütün dövrlərin bestselleri "Qənimət"in (The PRİZE) müəllifi Daniel Yergin "Enerji axtarışında: Enerji, təhlükəsizlik və müasir dünya nizamı" (The QUEST: Energy, Security, and the Remaking of the Modern World) kitabında o dövrü belə təsvir edir: *"Bakıda siyasi mübarizənin daha da kəskinləşdiyi bir vaxtda və ölkə vətəndaş müharibəsi astanasında olanda o, paytaxta qayıtdı və 1993-cü ildə baş verən üsyan cəhdləri fonunda prezident səlahiyyətlərini həyata keçirməyə başladı. Yetmiş yaşında Əliyev yenidən hakimiyyətə gəldi. O, özü ilə sabitlik gətirdi. O, işə böyük məharət də gətirdi".*

bp şirkətinn 1995-2007-ci illərdə baş icraçı direktoru olmuş və şirkət adından "Əsrin müqavilə"sini imzalayan Lord Con Braun (John Browne) təqaüdə çıxdıqdan sonra yazdığı "Biznesdən daha artıq" ("Beyond Business") kitabında həmin qərarı necə qarşıladığını belə xatırlayır: *"Müqaviləni ləğv edəndə o, cəmi beş gün idi ki hakimiyyətə gəlmişdi. Hər bir neft şirkəti indi artıq yeni bir anlaşma üçün müzakirələr aparmalı idi. Azərbaycana investisiya qoyuluşu ilə bağlı risklər aydın şəkildə məlum idi. Lakin uğurlu olduğu təqdirdə, onun gətirəcəyi qazancın miqyası da danılmaz idi ki, bu da məni bu istiqamətdə daha məqsədyönlü olmağa sövq edirdi".*

Təbii ki, SSRİ-nin yüksək siyasi rəhbərliyində təmsil olunmuş və sonradan müstəqil Azərbaycana rəhbərlik edən bir siyasi liderin belə qərarı xarici sərmayəçilər arasında müəyyən narahatlıq və hətta şübhələr də yaratmışdı. Ancaq çox keçmədi ki, bütün bu narahatlıqların əsassız olduğu hamı üçün aydınlaşdı.

Danışıqlar prosesində Ümummilli Lider Heydər Əliyevlə ilkin təmaslardan sonra Lord Con Braun ilkin ehtimalların doğru olmadığı qənaətinə gəlir: *"Əliyevin Moskvadakı keçmiş həmkarlarına üz tutacağı ilə bağlı ilkin qorxuların əsassız olduğu ortaya çıxdı. Görünür o, Azərbaycanın siyasi və iqtisadi üstünlüyü üçün əsas Qərb ölkələrindən istifadə etmək qərarına gəlmişdi. Neft isə böyük bir rıçaq idi".*

Daniel Yergin isə ilkin narahatlıqların əsassız olduğu və Ümummilli Liderin müstəqil siyasət yürütdüyünü belə xarakterizə edir: *"O həm də rusları və Moskva mentalitetini hamıdan yaxşı tanıyırdı və ruslarla necə davranacağını və öz yolu ilə nə qədər təhlükəsiz irəliləyə biləcəyini aydın başa düşürdü".*

Həmin ana qədər, əslində, "Azəri-Çıraq-Günəşli" yataqları üzrə üç ayrı müqavilə ətrafında danışıqlar gedirdi və məhz konsorsium yaradılması ideyası Ulu Öndərə məxsus idi. "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" yataqlarının üçü bir müqavilədə ortaya gətirildi. "Əsrin müqaviləsi" 7 ölkəni təmsil edən 11 şirkət arasında imzalandı. Bu baxımdan yenə də biz yaxın tariximizə nəzər salsaq, görərik ki, həmin dövrdə, XX əsrin 90-cı illərində imzalanan ilk beynəlxalq neft-qaz müqavilələri məhz bu tipli iri və nüfuzlu konsorsiumlarla imzalanan müqavilələr idi. Məqsəd fərqli dövlətləri, fərqli güc mərkəzlərini təmsil edən şirkətlərin Azərbaycana investisiya qoymasını təmin etmək və nəticədə həmin dövlətlərin ölkəmizə maraqlarını yaratmaq və artırmaq idi. Sonrakı dövrlərdə imzalanan neft-qaz müqavilələrinə diqqət yetirsək, görərik ki, o müqavilələr artıq konsorsiumlarla deyil, ayrı-ayrı şirkətlərlə imzalanmışdır. Ancaq "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və ilkin dövrlərdə imzalanan digər müqavilələrdə məhz nüfuzlu konsorsiumlara üstünlük verilməsi də uzaqgörən siyasətin bir nümunəsi idi.

Həmin dövrdə belə mühüm müqavilələrin həyata keçirilməsi üçün danışıqlar aparılması təcrübəsi ölkəmizdə yox idi. Kifayət qədər mürəkkəb və çətin bir dövr idi. Həmçinin bu sahədə nüfuzlu və kifayət qədər təcrübəyə malik tanınmış şirkətlərlə danışıqlar aparmağın özü də bir müdriklik və ciddi siyasi iradə tələb edirdi. Eyni zamanda unutmayaq ki, həmin dövrdə sonradan "Əsrin müqaviləsi" adlandırılacaq həmin müqavilənin imzalanması ətrafında şimaldan, cənubdan və digər Xəzər hövzəsi ölkələrindən hələ də Xəzərin Azərbaycan sektoru ilə bağlı iddialar qalmaqda idi. Hələ də "Azəri-Çıraq-Günəşli" yataqlarının kimin yurisdiksiyasına aid olması ilə bağlı qonşu dövlətlərin müxtəlif sualları var idi. Bu sahə ilə bağlı hələ də həll olunmamış problemlər mövcud idi. Məhz ciddi siyasi iradəsi olan rəhbərin ardıcıl və gələcəyə hesablanmış siyasəti nəticəsində həmin müqavilələr imzalandı və Xəzərin hüquqi statusu ilə bağlı bir sıra qeyri-müəyyənliklərə baxmayaraq, xarici şirkətləri Azərbaycana dəvət etmək və ölkəmizə irihəcmli investisiyalar yatırmağa sövq etmək mümkün oldu. Onu da qeyd edək ki, postsovet ölkələri içərisində xarici neft şirkətləri ilə beynəlxalq müqavilə imzalayan ilk dövlət məhz Azərbaycan olmuşdur. Bu baxımdan "Əsrin müqaviləsi" postsovet ölkələrinin xarici neft şirkətləri ilə imzaladığı ilk beynəlxalq sazişdir.

Təbii ki, o illərdə ölkədə və regionda baş verən siyasi prosesləri nəzərə almaqla ölkəyə böyükmiqyaslı investisiyanı cəlb etmək üçün xarici neft-qaz şirkətlərinə müəyyən təminatlar vermək lazım idi. Bu istiqamətdə Azərbaycan həmin dövr üçün innovativ hesab oluna biləcək bir yanaşma tətbiq etdi. Xarici neft-qaz şirkətləri ilə imzalanan hasilatın pay bölgüsü haqqında saziş - "Əsrin müqaviləsi" Azərbaycan parlamentində ratifikasiya olundu və həmin sazişə qanun qüvvəsi verildi. Qeyd etmək lazımdır ki, sazişdə yer alan müddəaların konstitusiya istisna olmaqla Azərbaycan qanunvericiliyinin hər hansı digər müddəası ilə ziddiyyət təşkil etdiyi təqdirdə, sazişin müddəalarına üstünlük hüququ verildi. Bu, kifayət qədər yeni və innovativ hüquqi yanaşma idi. Məhz bu cür təminatın verilməsi ilə həmin beynəlxalq şirkətlərin irihəcmli investisiyalarını ölkəmizə gətirmək mümkün oldu.

Eyni zamanda sazişin müddəalarına görə, "Azəri-Çıraq-Günəşli" yataqlarından neftlə birgə hasil edilən səmt qazı təmənnasız olaraq Azərbaycana verildi. Müqayisə üçün deyək ki, hazırda "Şahdəniz" yatağı üzrə toplam qaz hasilatımız təxminən 200 milyard kubmetrdir. "Əsrin müqaviləsi" üzrə bu günə qədər dövlətə təmənnasız verilən səmt qazının həcmi isə təxminən 55 milyard kubmetrdir. Başqa sözlə, "Əsrin müqaviləsi"ndən dövlətə təmənnasız olaraq "Şahdəniz" yatağının ümumi qaz hasilatının 27,5 faizi qədər qaz həcmləri təhvil verilib. Bu qədər səmt qazı məhz "Əsrin müqaviləsi"ndə yer almış həmin müddəa əsasında Azərbaycan dövlətinə təhvil verilmişdir. Bütün bunlar zamanında atılmış, həmçinin gələcəyə hesablanmış, uzaqgörən və strateji bir addımdır. Hazırda "Əsrin müqaviləsi" üzrə toplam 4 milyard bareldən artıq neft hasil edilmiş və Azərbaycan Respublikası Dövlət Neft Fonduna bu illər ərzində (1 iyul 2023-cü il tarixinə) 169,4 milyard ABŞ dolları həcmində vəsait daxil olmuşdur. Bu rəqəmlərin, mənfəət neftindən əldə olunan gəlirlərin Azərbaycanın iqtisadiyyatı, sosial inkişafı, hərbi sənaye kompleksi, təhsili, ümumiyyətlə, hər bir sahə üçün nə dərəcədə əhəmiyyətli olduğunu deməyə ehtiyac yoxdur.

Məlumdur ki, "Əsrin müqaviləsi" imzalandıqdan sonra əsas hədəflərdən və eyni zamanda çətinliklərdən biri də məhz neft ehtiyatlarımızın dünya bazarlarına çıxarılması idi. Azərbaycan dünya okeanlarına birbaşa çıxışı olmayan bir ölkədir. Bununla yanaşı, müqavilə imzalanana qədər Xəzər hövzəsini dünya bazarları ilə əlaqələndirən hər hansı boru kəmərləri şəbəkəsi də mövcud deyildi.

Təbii ki, heç bir xarici dövlət və ya şirkət Azərbaycan neftini birbaşa Azərbaycanda almaq niyyətində deyildi. Heç bu gün də belə bir praktika mövcud deyil. Bu səbəbdən Azərbaycan neftini və qazını dünya bazarına ixrac etmək üçün, neft-qaz ehtiyatlarının monetizasiyası üçün biz ixrac marşrutları ətrafında fikirləşməli idik. Həmin dövrdə ilkin ixrac marşrutu seçimində dilemma var idi: Şimal ixrac marşrutu - Bakı-Novorossiysk kəməri, yaxud Qərb ixrac marşrutu - Bakı-Supsa kəməri. Uzun müzakirələrdən sonra Azərbaycan hökuməti çox mühüm bir qərar qəbul edərək ixrac istiqamətlərindən birini deyil, əksinə, hər iki istiqaməti seçdi. Məqsəd heç kimi qıcıqlandırmayaraq öz siyasətimizi ardıcıl şəkildə həyata keçirmək idi.

İlk olaraq Bakı-Novorossiysk kəməri ilə Azərbaycan neftinin Qara dənizə ixracı həyata keçirildi. Daha sonra Bakı-Supsa boru kəmərindən istifadəyə başlanıldı. Bir müddət sonra Şimali Qafqazda baş verən proseslər və hərbi əməliyyatlar nəticəsində Bakı-Novorossiysk marşrutu ilə neftin ixrac edilməsi artıq mümkün deyildi. Həmin dövrdə Qərb ixrac marşrutunu da saxladığımıza görə, alternativ olaraq Bakı-Supsa kəməri ilə neft ehtiyatlarımızı dünya bazarlarına çıxara bildik. Bu baxımdan ilkin neftin ixracı üçün ancaq Qərb və ya Şimal marşrutu deyil, hər ikisini seçməyimiz bizə həmin məqamda ciddi alternativ üstünlük verdi. Nəticədə Azərbaycan neftinin ixracını fasiləsiz şəkildə davam etdirmək mümkün oldu.

Bundan sonra növbəti vacib qərar irihəcmli hasilata başladıqdan sonra əsas ixrac boru kəmərinin inşası idi. Çünki nə Bakı-Supsa, nə də Bakı-Novorossiysk boru kəmərləri növbəti mərhələlərdə, tamhəcmli hasilata başladığımız dövrdə neft ehtiyatlarımızı dünya bazarına çıxarmaq üçün kifayət deyildi. Daha böyükhəcmli, həmçinin təhlükəsiz bir boru kəmərinə ehtiyac duyulurdu.

Həmin dövrdə əsas ixrac boru kəməri üçün fərqli marşrutlar müzakirə olunurdu. Məsələn, Azərbaycanın neft-qaz ehtiyatlarını Rusiya ərazisindən Avropaya ixrac etmək, İran ərazisindən İran körfəzinə çıxmaq, Gürcüstan ərazisindən Qara dənizə çıxmaq, Gürcüstan üzərindən Türkiyəyə çıxmaq və s. Ümummilli Lider Heydər Əliyev mövcud seçimlər arasında Azərbaycan-Gürcüstan-Türkiyə ixrac marşrutuna üstünlük verdi. Bu gün bizim Bakı-Tbilisi-Ceyhan kimi tanıdığımız həmin boru kəmərinin ideya müəllifi, həyata keçirilməsinə nail olan şəxs məhz Ümummilli Lider olmuşdur.

Eyni zamanda Bakı-Tbilisi-Ceyhan boru kəməri həmin dövr üçün zəruri, ancaq çox çətin hesab edilən və hətta bir mühəndislik möcüzəsi hesab edilən ixrac marşrutu idi. Çünki 1768 kilometr məsafəyə uzanan boru kəməri dağlardan, çaylardan keçərək coğrafi baxımdan çox mürəkkəb marşrut üzərindən salındı. Həmçinin bu ixrac marşrutu kifayət qədər mürəkkəb mühəndislik işləri tələb edən ciddi və vacib bir layihə idi. Hətta investorlar bu qədər mürəkkəb layihəyə ciddi investisiya qoymağa bir qədər tərəddüd edirdilər. Amma məhz Ulu Öndərin siyasi iradəsi, qətiyyəti və eyni zamanda Gürcüstan və Türkiyə hökumətləri ilə bütün məsələləri kompromis qaydasında danışıqlarla həll etməsi investorlar üçün də başqa çıxış yolu qoymadı.

Lord Con Braun sonralar bu qərarla bagl͏ı öz kitabında yazacaqdı: *"Azərbaycan Prezidenti Heydər Əliyev qərara gəldi ki, bu marşrut milli prioritetdir, çünki o, Azərbaycanın Türkiyə və Qərblə strateji əlaqələrini gücləndirəcək".*

Çox maraqlı məqamlardan biri də bu ixrac boru kəmərinin niyə məhz Bakı-Tbilisi-Ceyhan adlandırılmasıdır. İlkin olaraq belə təəssürat yaranırdı ki, boru kəməri Bakıda başlayıb, Tbilisidən keçib, Ceyhanda başa çatır. Əslində, bu, belə deyil. Çünki boru kəməri Bakıdan bir qədər kənarda Səngəçal qəsəbəsində başlayır, Tbilisidən, ümumiyyətlə, keçmir, Ceyhana isə çatmır, Ceyhan yaxınlığında Yumurtalıq qəsəbəsində bitir.

Bəs niyə məhz Bakı-Tbilisi-Ceyhan? Məqsəd yaranmaqda olan və gələcəkdə çox geniş şəkildə istifadə olunacaq yeni nəqliyyat dəhlizinin - Azərbaycan, Gürcüstan, Türkiyə dəhlizinin dünyaya elan olunması idi. Eyni zamanda bu dəhlizin dünyada tanınması üçün təbii ki, Bakı-Tbilisi-Ceyhan adından daha uğurlu ad ola bilməzdi. 1992-1999-cu illərdə Azərbaycan Respublikasının Xarici siyasət məsələləri üzrə dövlət müşaviri vəzifəsində çalışmış Vəfa Quluzadənin sonralar müsahibələrindən birində qeyd etdiyi kimi, boru kəmərinin adının razılaşdırılması ABŞ Prezidenti Bill Klintonla Ümummilli Lider Heydər Əliyev arasında telefon danışığı əsasında yekunlaşmışdır. ABŞ Prezidenti bu ixrac boru kəmərinin istiqaməti ilə bağlı, onun necə adlandırılması ilə bağlı Azərbaycan Prezidentinə zəng etmiş və məsləhətləşmələr aparmış, bununla da dolayısı ilə layihəyə öz dəstəyini vermişdir.

Ümummilli Liderin mövcud geosiyasi vəziyyəti vaxtında incəliklə dəyərləndirərək apardığı düzgün xarici siyasət Azərbaycanın dünyanın həm siyasi, həm də enerji xəritəsində öz layiqli yerini tutmasını, həmçinin ölkəmizin enerji siyasətinin obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırılmasını təmin etmişdir.

Qeyd etmək lazımdır ki, qlobal xarakterli və mühüm əhəmiyyət kəsb edən sazişlərin imzalanması, enerji siyasətinin həyata keçirilməsi sadəcə makroiqtisadi göstəricilərlə ölçülmür. Bu illər ərzində neft-qaz sazişlərinin uğurlu icrası nəticəsində ölkəyə çox ciddi beynəlxalq təcrübə gətirildi. Buraya yeni dövrün tələblərinə uyğun neft-qaz hasilatı, əməyin mühafizəsi, əmək şəraiti, maliyyə standartları və s. daxildir.

Ötən 29 il ərzində xarici investorların regionda gördükləri işlərin xronologiyasına nəzər salsaq, Xəzər hövzəsindəki təhlükəsiz, mürəkkəb və səmərəli əməliyyatlara əsaslanan çoxsaylı unikal və əlamətdar hadisələrlə dolu geniş fəaliyyətin xəritəsini görərik. Bu çoxşaxəli fəaliyyətlər həm ölkəyə, həm də onun biznes tərəfdaşlarına möhtəşəm uğurlar gətirmişdir. Bu baxımdan "Əsrin müqaviləsi" imzalanandan indiyə kimi bu müqavilə üzrə fəaliyyətlər təkcə ölkənin deyil, həm də bütün regionun inkişafına öz təsirini göstərdi.

Bu müqavilə:

- dünyanın əsasən bütün iri neft və qaz şirkətlərinin iştirakı ilə bağlanmış 30-dan çox digər hasilatın pay bölgüsü sazişinin imzalanmasına yol açdı;
- güclü və davamlı şəkildə artan iqtisadiyyatın yaranmasına töhfə verdi;
- Azərbaycan dövləti üçün bu iqtisadi artımı dəstəkləyən yeni əhəmiyyətli gəlir mənbəyi təmin etdi;
- ölkənin beynəlxalq aləmlə qurduğu yeni ticarət əlaqələrinə əhəmiyyətli töhfə verdi;
- dünya səviyyəli dəniz karbohidrogen hasilatı sektorunu yenidən dirçəltdi və quruda da etibarlı, təhlükəsiz və ətraf mühitə təsiri minimum olan neft ixrac sisteminin - Xəzər neftini birbaşa dünya bazarlarına nəql edən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin yaradılmasına imkan verdi;
- Xəzərin sahillərində dünyanın ən müasir neft və qaz emalı obyektlərindən birini yaratdı;
- nəhəng "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi layihəsinin uğurla həyata keçirilməsinə investorlarda inam yaratdı ki, bunun nəticəsində Xəzərin tarixində ilk dəfə olaraq Azərbaycan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya ərazilərindən keçərək İtaliyaya qədər uzanan nəhəng qaz dəyər zənciri vasitəsilə birbaşa Avropa bazarlarına nəql edildi;
- dünya səviyyəli istehsal, təlim və təhsil obyektlərinin yaradılmasına imkan verdi və ümumilikdə, ölkədə peşə və bacarıq bazasını gücləndirdi;
- rəqabətqabiliyyətli yerli təchizat zəncirinin formalaşmasını stimullaşdırdı;
- yüksək təhsilli yerli mühəndislərin və dünya səviyyəli digər peşəkar kadrların yetişməsinə imkan yaratdı;
- yerli tikinti sektorunda on minlərlə iş yeri yaratdı;
- bacarıqların inkişafı, infrastruktur, təhsil və gəlirli biznes imkanları yaratmaqla yüzlərlə kənd icmasının davamlı inkişafına dəstək verdi.

Əldə edilmiş uğurların miqyası olduqca böyükdür. Bütün bunların əsasında bütün tərəflərin əvvəldən sazişin tələblərinə və standartlarına tam uyğun şəkildə işləmək öhdəliyi və onların bu qlobal layihələrin gerçəkləşməsinə və imzalandıqdan sonra ölkənin qanunu kimi qüvvəyə minmiş hasilatın pay bölgüsü sazişlərinin həyata keçirilməsinə verdiyi töhfələr durur.

Şübhəsiz ki, bütün bu nailiyyətlərin əsasında cənab Prezident İlham Əliyevin və Azərbaycan hökumətinin böyük dəstəyi və fəaliyyəti durur. Bunlar dövlət başçısının neft-qaz sahəsində yürütdüyü müdrik və uzaqgörən siyasətinin və Azərbaycan xalqının dəyişikliklərə, transformasiyaya, o cümlədən inkişafa məmnuniyyətlə qoşulmaq niyyətinin bəhrəsidir.

Etiraf etmək lazımdır ki, xarici və yerli biznes üçün sağlam və əlverişli mühit yaratmaq məqsədilə hökumətin həyata keçirdiyi islahatlar və atdığı digər mühüm addımlar olmadan bunların heç birinə nail olmaq mümkün olmazdı. Həmçinin hökumət, müvafiq nazirliklər, SOCAR, xarici neft şirkətləri və onların podratçıları arasındakı sıx əməkdaşlığın da əhəmiyyəti böyük olmuşdur. Nəticədə bu illər ərzində Azərbaycan dünyanın aparıcı neft və qaz hasil edən ölkələrindən biri kimi dinamik inkişaf yolundadır.

Bununla yanaşı, sənayenin genişlənməsi ölkəni regional mərkəzə çevirdi, bununla da əlaqədar bizneslərin formalaşması, həmçinin iş yerlərinin açılması, tərəfdaşlıq əlaqələrinin qurulması, dünya bazarları ilə əlaqələrin genişləndirilməsi, müasir texnologiyaların, o cümlədən dünya təcrübəsinin öyrənilməsi, əhəmiyyətli gəlirlər gətirən irimiqyaslı neft və qaz layihələri üçün dinamik xidmət sektorunun inkişafı baxımından artan imkanlar yaratdı.

Bütün bunlar ölkəyə imkan verdi ki, davamlı olaraq iqtisadiyyatın şaxələnməsinə xüsusi diqqət ayırsın. Neftdən əldə edilən irihəcmli gəlirlər qeyri-neft sektorunun inkişafına yönəldilmiş, beləliklə də, qeyri-neft sektorunun ölkənin sürətli iqtisadi artımının dayanıqlığını təmin edəcək səviyyədə inkişaf etdirilməsi istiqamətində böyük işlər görülmüşdür.

Bu gün "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə Xəzərdə fəaliyyət göstərən 7 platformada, eləcə də Səngəçal terminalında dünyanın ən son texnoloji nailiyyətləri mövcuddur. Həmçinin dünyada neft-qaz sahəsində mövcud olan ən son texnologiyalardan bu gün ölkəmizdə, Xəzər hövzəsində istifadə edilir.

Bununla yanaşı, "Əsrin müqaviləsi"nin əhəmiyyətli məqamlarından biri də həmin texnologiyaların, təcrübələrin ölkəmizə gətirilməsi ilə yanaşı, milli kadr potensialının yetişdirilməsidir. "Azəri Mərkəzi Şərqi" (ACE) platformasında Azərbaycanda ilk dəfə (eləcə də bp-nin təcrübəsində ilk dəfə olaraq) tətbiq olunan bir texnologiyadan istifadə edilmişdir. Bu platforma məsafədən, Səngəçal terminalından idarə olunacaq. Nəticədə dənizdə hasilat şəraitdən asılı olmadan fasiləsiz davam edə biləcək. Onu da qeyd etmək lazımdır ki, bu, dünyanın çox az ölkəsində mövcud olan texnologiyadır və həmin texnologiyanın ölkəmizə gətirilməsi, idarə edilməsi Azərbaycan mühəndisləri tərəfindən həyata keçirilir. Bu müasir platforma bütövlükdə Azərbaycanda inşa edilmişdir və onun tikintisində çalışan mühəndis-işçi heyətinin 92 faizi Azərbaycan vətəndaşlarıdır. Başqa sözlə, "Əsrin müqaviləsi"nin uğurlu icrası nəticəsində biz artıq belə geniş miqyaslı və mürəkkəb layihələr həyata keçirə bilən bir ölkəyə çevrilmişik.

Ümummilli Liderin *"İrimiqyaslı və nəhəng şəxsiyyət olduğu üçün heç vaxt onunla əks tərəfdə olmaq istəmədiyini"* yazan Lord Con Braun onun şəxsi keyfiyyətləri barədə öz kitabında bunları vurğulayır: *"Güclü təəssürat yaratmağı, necə dayanmağı, harada olmağı, nə deməyi və nəyə müdaxilə etməməyi yaxşı bilirdi. O, qeyri-adi istedada malik bir siyasətçi idi".*

Daniel Yergin isə Ümummilli Liderin böyük siyasətçi olduğunu vurğulayaraq öz kitabında belə qeyd edirdi: *"O, həm də məharətli taktika ustası və mükəmməl bir strateq idi. O, Azərbaycanın neft potensialından ölkəni əsl dövlətə çevirmək üçün istifadə edəcək, onun bütövlüyünü dəstəkləmək üçün əsas dövlətləri cəlb edəcək və bu prosesdə öz üstünlüyünü və nəzarətini təmin edəcək".*

Ulu Öndərin banisi olduğu enerji siyasətinin bu gün də uğurlu şəkildə davam etdirilməsi, neft-qaz siyasətinin müasir geosiyasi və geoiqtisadi şəraitə uyğun olaraq reallaşdırılması çox mühüm əhəmiyyət kəsb edir. Bu gün dünyanın enerji böhranı yaşadığı bir dövrdə Azərbaycana yeni enerji mənbələrindən biri kimi müraciət edilir və hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu getdikcə artmaqdadır.

İmzalanan sazişlər, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından Azərbaycana verilən önəm, ölkəmizin nüfuzunun daha da artması, dünyanın həm enerji, həm siyasi xəritəsində Azərbaycanın yerinin parlaq şəkildə bərqərar olması zamanında məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan enerji diplomatiyasının bu gün də dinamik şəkildə və uğurla davam etdirilməsinin nəticəsidir.

***Bəxtiyar ASLANBƏYLİ,***
***bp-nin Xəzər regionu üzrə vitse-prezidenti***

## 20 Sentyabr "Əsrin müqaviləsi"nin 29-cu ildönümü və Azərbaycan Neftçilərinin Peşə Bayramı Günüdür

# Azərbaycanın yeni neft strategiyasının təməl daşı



### Prezident İlham ƏLİYEV: "Neft Azərbaycana rifah, inkişaf, sabitlik, güc gətirir"

**20 Sentyabr günü xalqımız və dövlətimiz üçün bir neçə səbəbdən əlamətdar və dəyərlidir. Azərbaycan neftçiləri həmin gün öz peşə bayramlarını qeyd edirlər. Bu barədə 2001-ci il avqustun 16-da Ulu Öndər Heydər Əliyev Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək qərar vermişdir.**

"Neftçilər günü"nün məhz sentyabrın 20-sində qeyd edilməsi təsadüfi deyil. Çünki 1994-cü ilin həmin günü Azərbaycanın yeni neft strategiyasına start verən, ölkəmizi tənəzzüldən inkişaf yoluna çıxaran "Əsrin müqaviləsi" imzalanmışdır. "Əsrin müqaviləsi"nin 20 illiyinin qeyd edildiyi 2014-cü ilin 20 sentyabr günü tariximizi daha bir mühüm səhifə ilə zənginləşdirmişdir. Bu dəfə Prezident İlham Əliyevin meqalayihəsinin, Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi"nin təməli qoyulmuşdur.

Azərbaycanın adı dünya tarixinə neftin vətəni kimi həkk olunub. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurub və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə düşüb. Zəngin neft-qaz sərvətlərinə malik olduğuna görə ölkəmizi "Odlar diyarı" adlandırıblar.

Əlbəttə, o zamanlar belə böyük bir sərvət xaricin iri kapitalistlərinin diqqətini çəkməyə bilməzdi. Odur ki, həmin dövrlərdə neft maqnatları Azərbaycana axışıblar. Nobellər, Mantaşevlər, Rotşildlər torpağımızın "qara qızıl"ını qan kimi sorub aparmaq üçün özlərini oda-közə vurublar.

Azərbaycan neftinin böyük bir hissəsi də Xəzərin dərinliklərində "uyuyurdu". Xoşbəxtlikdən dənizin "qara qızıl" sərvətini üzə çıxarmaq keçən əsrin ortalarında Azərbaycan neftçilərinin özünə qismət oldu. 1949-cu ildə "Neft Daşları"nda ilk quyu fontan vurdu. Başqa sözlə, dünyada dəniz neftinin erası da Azərbaycandan, Xəzərdən başlandı.

Sovet dönəmində Azərbaycanda həm qurudakı, həm də dənizdəki yataqlardan böyük həcmdə neft çıxarılırdı. Lakin keçmiş SSRİ-nin planlı təsərrüfatı təbiətin bəxş etdiyi bu zənginlikdən xalqımızın lazımınca bəhrələnməsinə imkan vermirdi.

Müstəqilliyin ilk illəri isə Azərbaycan üçün çətin keçdi. Ölkəni idarə edənlərin məsuliyyətsizliyi və səriştəsizliyi ucbatından neft-qaz sənayesi də tənəzzülə uğradı. Dönüş isə yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra baş verdi. 1994-cü ildə dünyanın ən tanınmış neft şirkətləri ilə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi üçün saziş imzalandı. Azərbaycan iqtisadiyyatının "qəddini düzəldən", ölkənin gələcək inkişafına təkan verən bu möhtəşəm kontrakt "Əsrin müqaviləsi" adını aldı. "Əsrin müqaviləsi" ölkəmizin yeni neft-qaz strategiyasının əsasını qoydu və təsdiqlədi ki, müstəqil Azərbaycanın xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir.

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və dünyanın 11 aparıcı neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı AÇG yataqlarının tammiqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) imzalanması Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və gərgin səyi ilə gerçəkləşdi. "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan böyük inkişaf yoluna qədəm qoydu. Buna görə də AÇG-nin işlənməsi, əslində, əsrlərə hesablanmış bir layihədir. Onun reallaşması təkcə Azərbaycan üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyət kəsb etdi. Bu saziş regionda digər qlobal layihələrin gerçəkləşməsinə yol açdı, Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırdı, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu.

Yeni neft strategiyası Azərbaycanın qədim neft-qaz ölkəsi kimi şöhrətini özünə qaytardı, dövlətimizin uzunmüddətli, davamlı inkişafına zəmin yaratdı. Azərbaycanın dinamik inkişaf edən, güclü və nüfuzlu ölkəyə çevrilməsində müstəsna rol oynayan bu strateji kurs həm də dövlətin iqtisadi-siyasi qüdrətinin və beynəlxalq birliyə inteqrasiyasının, xalqımızın durmadan yüksələn sosial rifahının təminatçısı oldu. Ölkədə aparılan genişmiqyaslı quruculuq işləri, respublikanın beynəlxalq aləmdə qazandığı uğurlar həmin uzaqgörən konsepsiyanın təntənəsinə aydın misaldır.

Prezident İlham Əliyevin dediyi kimi: "Əsrin kontraktı"nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz "qara qızıl"ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

"Əsrin müqaviləsi" çərçivəsində artıq 26 ildir neft hasil olunur. Bu gün AÇG müqavilə sahəsində 8 platforma fəaliyyət göstərir. Cari ilin birinci yarısında AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. Bu yataqlar blokundan ümumi hasilat 68 milyon barel, yəni 9 milyon ton olub.

AÇG-dən neftlə bərabər, səmt qazı da hasil edilir ki, onun da bir hissəsi təzyiqi saxlamaq üçün yenidən laylara vurulur. Mavi yanacağın böyük hissəsi isə təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilir, yəni Səngəçaldan SOCAR-ın "Azəriqaz" sisteminə ötürülür.

Azərbaycanın yeni neft strategiyası düzgün və böyük uzaqgörənliklə müəyyən olunmuş bir xətt olduğu üçün getdikcə inkişaf edir, yeni bəhrələr verir. 2017-ci il sentyabrın 14-də AÇG üzrə yeni müqavilənin imzalanması bunu bir daha təsdiq etdi. Əvvəlki tərəfdaşlarla razılaşdırılmış şərtlər əsasında layihənin müddəti əsrin ortasınadək uzadıldı. Beləliklə, sözügedən dövr ərzində AÇG blokunun Azərbaycana gətirdiyi iqtisadi mənfəətlər maksimuma çatdırılacaq. Yeni müqavilənin şərtləri 29 ildən bəri ölkəmizin artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, xarici tərəfdaşların Azərbaycana inamını təsdiqləyir və bu müddət ərzində formalaşmış beynəlxalq tərəfdaşlığı yeni müstəviyə qaldırır.

Prezident İlham Əliyev Azərbaycanın bu və digər layihələrdə yaratdığı əməkdaşlıq və tərəfdaşlıq platformasının əhəmiyyətini dəfələrlə vurğulamışdır. Dövlət başçısı çıxışlarının birində bu barədə belə demişdir: "Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə bp şirkətini qeyd etmək istərdim. Çünki bp şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur...Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var".

"Əsrin müqaviləsi"nin imzalandığı 1994-cü ildən bəri Azərbaycanda həmçinin ən müasir və zəngin neft-qaz infrastrukturu yaradılıb. Çoxsaylı tikinti-quraşdırma sahələri, terminal və ixrac kəmərləri, digər obyektlər "Əsrin müqaviləsi"nin və ondan sonrakı sazişlərin reallığa çevrilməsində mühüm rol oynayıb. Bu infrastruktur hələ uzun illər Azərbaycana xidmət edəcək. Mövcud layihələr bitəndən sonra isə həmin obyektlərin hamısı mülkiyyət kimi dövlətimizə, sərvət kimi xalqımıza qalacaq.

"Əsrin müqaviləsi" böyük sabaha hesablanmış bir saziş olduğunu təsdiqləyərək yeni qlobal layihələrə yol açdı. 9 il əvvəl - 2014-cü il sentyabrın 20-də Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin təməlinin qoyulması bu həqiqətin daha bir sübutu oldu.

"Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan mavi yanacaqdır. "Şahdəniz"dən 17 ildən çoxdur qaz hasil edilir. Bu yataq Azərbaycanı dünyada qaz ixrac edən ölkə kimi tanıtdı. Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ilin ortalarında istifadəyə veriləndən bəri "Şahdəniz-1" qazını Gürcüstana çatdırır. 2007-ci ilin iyul ayından isə bu kəmərlə mavi yanacaq həm də Türkiyəyə nəql olunur. Belə ki, Gürcüstan-Türkiyə sərhədində CQBK-ya əlavə kəmər birləşdirilir və o, Azərbaycan qazını Ərzurumadək aparır. İndi artıq fəaliyyətdə olan "Cənub qaz dəhlizi"nin möhkəm bünövrəsi, uğurlu başlanğıcı məhz Bakı-Tbilisi-Ərzurum kəməridir. Beləliklə, bu dəhliz möhkəm təmələ əsaslanır və onun birinci hissəsi, əslində, 2007-ci ildə istifadəyə verilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Başqa sözlə, Azərbaycan hələ 100 il bundan sonra özünü və bir sıra digər ölkələri qazla təmin etmək imkanına malikdir.

Genişləndirilmiş CQBK "Cənub qaz dəhlizi"nin birinci hissəsidir. Dəhlizin ikinci kəməri TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci il iyunun 12-də istifadəyə verilib. Sonuncu seqment - TAP (Trans-Adriatik Qaz Boru Kəməri) 2020-ci il dekabrın 31-də istismara daxil olub.

Beləliklə, 3500 kilometrlik "Cənub qaz dəhlizi" üç boru kəmərindən ibarət inteqrasiya edilmiş ixrac xətləri sistemidir. Bu dəhliz Azərbaycandan və Gürcüstandan keçən genişləndirilmiş CQBK, Türkiyənin ərazisi boyu 1850 kilometr yol qət edən TANAP və sonuncu seqment olan TAP-ın birləşməsindən yaranıb.

Zaman "Cənub qaz dəhlizi"nin də nə qədər dəyərli bir layihə olduğunu sübuta yetirdi. Xüsusilə son dövrlər Azərbaycanın Avropaya nəql etdiyi qaza tələbatın artmasından tez-tez söhbət gedir. Bu məsələ Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumunda da öz əksini tapıb, həmçinin Prezident İlham Əliyevin bir sıra beynəlxalq forumlarda çıxışlarında və xarici KİV-ə verdiyi müsahibələrində başlıca mövzulardan olub. Builki çıxışlarının birində dövlət başçısı demişdir: "2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik. Beləliklə, həmin həcm bu il üçün planlaşdırdığımız 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracımızın təxminən yarısını təşkil edəcək. Təbii ki, qaz hasilatı və ixracımız artacaq. Çünki biz hasilatı mövcud qaz yataqlarında artıracağıq və gələn illərdə isə yeni yataqlarda təbii qazın hasilatını gözləyirik. Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq. Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki "Cənub qaz dəhlizi" Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi, əminəm ki, yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq".

"Cənub qaz dəhlizi" Azərbaycanın təşəbbüsü və liderliyi ilə, beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində gerçəkləşən layihədir. Təsadüfi deyil ki, 2015-ci ildən başlayaraq ölkəmiz "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantılarının hamısına (2021-ci ildə koronavirus səbəbindən onlayn keçirilən müşavirədən başqa) evsahibliyi edib. Bu toplantılar layihənin irəliləməsində mühüm rol oynayıb, burada görülmüş işlər barədə geniş söhbət açılıb, qarşıda duran vəzifələr müzakirə edilib, layihə ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev artan ehtiyacı təmin etmək üçün sıx əməkdaşlığın və əlaqələndirmənin lazım olduğunu dəfələrlə vurğulayıb. Tərəfdaşlarının etibar və inamını qazanmış ölkəmizin onların ehtiyaclarını qarşılamaq üçün əlindən gələni əsirgəməyəcəyi bildirilib.

Azərbaycan neftinin Bibiheybətdən, Balaxanıdan, Ramanadan, Pirallahıdan başlanan salnaməsi illər keçdikcə yeni səhifələrlə zənginləşib. Azərbaycan neftçisi isə "Azəri-Çıraq-Günəşli" platformalarına qədər uzun və şərəfli yol keçib. Bu gün təbiət ona daha bir şans verib, ehtiyatları onilliklərə hesablanmış təbii qaz da hasil edir. "Şahdəniz" bütün dünyaya səs salıb. Sırada isə növbəti karbohidrogen yataqlarının kəşfi və işlənməsi dayanır.

Bununla yanaşı, dövlətimiz köhnə sahələrdə də hasilatın sabit saxlanılmasını, onilliklərdir istismar edilən yataqların imkanlarından səmərəli istifadə olunmasını qarşıya məqsəd qoyub. Neftçilərimiz bu vəzifənin də öhdəsindən layiqincə gəlirlər.

Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları - böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar. Bu gün onların - qurudakı mədənlərdə, dənizdəki estakada və meydançalarda, özül və platformalarda çalışan fədakar insanların bayramıdır.

Prezident İlham Əliyev neftin və qazın ölkə iqtisadiyyatının əsas potensialı olduğunu vurğulayır. Azərbaycan neftçisi də bu potensialı üzə çıxararaq gücümüzü, sərvətimizi artırır. Dövlət başçısı bu çətin və şərəfli peşə sahiblərinin əməyini həmişə yüksək qiymətləndirir: "Azərbaycan neftçilərinin əməyini qeyd etmək istərdim. Azərbaycanda neftçi peşəsi həmişə böyük hörmətə malik olub, bu gün də bu, belədir. Azərbaycan neftçiləri ölkəmizin uğurlu inkişafı üçün çox böyük işlər görürlər, qəhrəmanlıq göstərirlər".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ötən əsrin xilaskar imzası

### "Əsrin müqaviləsi" Azərbaycanı inkişaf etmiş iqtisadiyyata malik ölkəyə çevirdi

**XX əsrin siyasi və beynəlxalq əhəmiyyətli layihələrindən hesab olunan, 7 ölkənin 11 neft şirkətinin imzaladığı, Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü sənədi tarixə "Əsrin müqaviləsi" kimi düşdü.**

Ümummilli Lider Heydər Əliyevin ölkə iqtisadiyyatının inkişafı istiqamətində atdığı əsas addımlardan olan, Azərbaycan iqtisadiyyatının yeni mərhələsi hesab olunan sazişin imzalanmasından 29 il ötür.

"Əsrin müqaviləsi" ölkəmizi yeni inkişaf yoluna çıxartdı. Yeni neft strategiyası ilə Azərbaycanın neft hasilatı artdı, beləliklə, yeni-yeni layihələrin təməli qoyuldu. Həmçinin layihə əsasında ilkin neftin hasil edilməsi ilə ölkəmiz neft ixracatçısına çevrildi.

Bu saziş xarici sərmayədarları Azərbaycana kapital qoyuluşuna cəlb etdi. Bir çox ölkənin iqtisadi maraqlarına cavab verən müqavilə nəticəsində ölkəmizin nüfuzu yüksəlməyə başladı. XX əsrin sonlarında Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində imzalanan müqavilə Azərbaycanı XXI əsrin nüfuzlu, güclü, inkişaf etmiş iqtisadiyyata malik ölkəsinə çevirdi.

Bu gün regionun lider ölkəsinə çevrilən Azərbaycan bir çox dövlətlə neft sazişləri imzalayıb, mühüm layihələr həyata keçirməyə davam edir.

Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində "Əsrin müqavilə"sindən başlanan iqtisadi inkişaf yüksələn xətlə davam edir.

#### "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi strategiyasına müsbət təsirlərini qoruyub saxlayır

Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, "Əsrin müqaviləsi" Azərbaycan üçün yalnız enerji siyasətinin deyil, eyni zamanda iqtisadi strategiyanın müəyyənləşdirilməsində həlledici təsirə malik olub.

1994-cü ildə iqtisadi problemlərə, daxili siyasi çətinliklərə baxmayaraq, Ümummilli Liderin rəhbərliyi, uzaqgörən siyasəti nəticəsində Azərbaycan "Əsrin müqaviləsi"ni öz maraqlarına uyğun imzalaya bilib: "O zaman Azərbaycan kifayət qədər iqtisadi problemləri olan bir ölkə idi, dövlət büdcəsi 500 milyon dollara belə çatmırdı. Belə olan halda Azərbaycanın böyük məbləğli müqavilə imzalaması və qısa zamanda neft sektoruna 1 milyard dollar investisiya qoyması Ulu Öndər Heydər Əliyevə olan inam və etimadın göstəricisi idi. Azərbaycan 2006-cı ildən etibarən müqavilə çərçivəsində hasil edilən neftin dünya bazarına çıxarılmasını təmin etdi. Bu, gəlirlərimizin artmasına, qeyri-neft sektorunun inkişafı ilə bağlı maliyyə təminatının gücləndirilməsinə imkan yaratdı".

Bu strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan V.Bayramov bildirib ki, ölkəmiz bu gün Avropanın enerji təhlükəsizliyinə töhfə verən əsas dövlətlərdən birinə çevrilib. Eyni zamanda "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması ilə bağlı yeni anlaşma imzalanıb. Bu sənəddə Azərbaycan üçün şərtlər daha məqbul oldu, o cümlədən bonusun həcmi və Dövlət Neft Şirkətinin payının artırılması ilə bağlı razılaşmalar əldə edildi. Azərbaycan bu müqavilə kontekstində Avropa İttifaqı və regiondakı dost ölkələrlə yeni münasibətlər qurmaqdadır. Mavi qaz ixracatının genişləndirilməsi, 2016-cı ildən sonra Avropa bazarına alternativ mənbələrdən əldə edilən enerjinin çatdırılması ondan xəbər verir ki, bu gün "Əsrin müqaviləsi" Azərbaycanın enerji siyasətinə, iqtisadi strategiyasına müsbət təsirlərini qoruyub saxlayır.

Deputatın sözlərinə görə, saziş yalnız neft, enerji sahəsinin deyil, həm də qeyri-neft sektorunun inkişafı baxımından vacib müqavilə idi. "Saziş Azərbaycanda həm iqtisadi siyasətin genişləndirilməsi, həm diversifikasiya imkanının artırılması, həm sosial təminatın gücləndirilməsi, həm də infrastrukturun inkişaf etdirilməsi üçün kifayət qədər ciddi maliyyə bazası formalaşdırdı", - deyə deputat əlavə edib.

#### XX əsrin beynəlxalq əhəmiyyətli sazişi

XX əsrin sonlarında Azərbaycan iqtisadiyyatının pis vəziyyətdə olduğunu, inflyasiyanın 1000 faizi ötdüyünü qeyd edən Milli Məclisin deputatı Rüfət Quliyev bildirib ki, həmin dövrdə dünyanın ən aparıcı onlarca neft şirkətinin Azərbaycanda rahat şəkildə "Əsrin müqaviləsi"ni imzalaması birmənalı olaraq Ulu Öndərə olan inamdan, hörmətdən irəli gəlib.

Deputat qeyd edib ki, Ümummilli Lider sayəsində həmin şirkətlər bu müqaviləyə qol çəkib: "İnanmıram ki, başqa ölkədə belə bir vəziyyətdə şirkətlər 100 milyard dollarlıq sənədə qol çəkərlər. Amma zamanında imzalanan müqavilənin bəhrəsini həm xarici şirkətlər, həm də Azərbaycan gördü. 1994-cü ildən bəri Azərbaycana 300 milyard dollardan çox investisiya qoyuldu. Bu, böyük rəqəmdir. Bu yatırımlar istər neft-qaz, istərsə də digər sektorlarda indiyədək davam edir. "Əsrin müqaviləsi" qlobal təkan, lokomativ oldu. Dünya bu müqaviləyə inandı, bu barədə eşitdi. Müqavilə digər aparıcı, nəhəng xarici şirkətlərə də işarə oldu ki, Azərbaycana gəlmək, investisiya qoymaq lazımdır. Çünki Azərbaycanda bunun üçün şərait yaranırdı, Ümummilli Lider cəsarətlə ölkəni inkişaf etdirirdi. Bu məqamlar bir çox şirkətə təsir etdi".

R.Quliyev vurğulayıb ki, Azərbaycan yalnız neft-qaz sahəsində deyil, iqtisadiyyatının əsasını "Əsrin müqaviləsi"ndən qurmağa başlayıb: "Artıq neft-qaz sahəsində xarici şirkətlərdən bir o qədər asılılığımız qalmayıb. "Əsrin müqaviləsi" nəticəsində yeni texnologiyalar, kapitallar, kadrlar, ölkələri cəlb edə bildik. Bugünkü Azərbaycanla odövrkü Azərbaycan arasında yüz dəfələrlə fərq var. Bu gün neft-qaz siyasətimizi qurmuşuq, müstəqil siyasət aparırıq, kəmərlər çəkmişik və neft ixrac edirik. "Əsrin müqaviləsi" olmasaydı, təbii ki, Ulu Öndərin siyasəti nəticəsində Azərbaycan inkişaf edəcəkdi, amma belə sürətlə çətin olardı. Bu gün hamımız Ümummilli Liderimizə minnətdarıq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi türkiyəli nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 19-da Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Hüquq Xidmətinin nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirən Baş Qərargah rəisi Azərbaycan Ordusunda hərbi qanunvericilik və beynəlxalq humanitar hüququn tətbiqi ilə əlaqədar keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıb. Görüşdə hüquq xidmətinin təşkili, hərbi hüquqşünasların xidməti fəaliyyəti və digər sahələrdə ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunun komandanlıq heyətinin iştirakı ilə konfrans keçirilir



Sentyabrın 19-da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müdafiə nazirinin müavinləri, hərbi birlik və birləşmə komandirləri, eləcə də ideoloji iş və mənəvi-psixoloji təminat və hüquq ixtisası üzrə zabitlərin iştirakı ilə "Hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi" mövzusunda konfrans işinə başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, konfransda bu il ərzində görülən işlər, hərbi hissə komandirlərinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığı üzrə tədbirlərin təşkili və keçirilməsində rolu, zabitlərin hərbi qanunvericilik sahəsində rəhbər sənədləri bilməsi, həmçinin hərbi intizamın gücləndirilməsi, qış dövrünə hazırlıq və bir sıra digər aktual məsələlər müzakirə olunacaq.

Konfrans sentyabrın 21-nə kimi davam edəcək.




# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## Mərkəzi Seçki Komissiyasının iclasında bir sıra məsələlərə baxılıb



**Sentyabrın 19-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın bu il mayın 26-da keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi ilə bağlı məsələyə baxılıb.

Diqqətə çatdırılıb ki, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki dairələri üzrə seçicilərin sayının orta təmsilçilik normasına uyğunlaşdırılmasını təmin edir, bu məqsədlə ardıcıl və sistemli tədbirlər görür, mütəmadi olaraq seçki dairələrinin sxemi və onun qrafik təsvirini nəzərdən keçirir, qanunvericiliyin tələblərini rəhbər tutaraq lazımi addımlar atır.

Seçicilərin sayının artım dinamikasının təhlilinə əsasən, hazırda seçki dairələrində orta təmsilçilik normasının Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun tənzimlənməsinə zərurət yarandığından, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq olunması üçün hüquqi əsaslar yaranıb.

Bununla əlaqədar olaraq seçki qanunvericiliyinin sözügedən tələblərinin təmin edilməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılan və mütəxəssislərdən ibarət olan seçki dairələrinin sərhədlərinin müəyyənləşdirilməsi üzrə komissiya da qeydə alınmış seçicilərin orta təmsilçilik norması və qanunvericiliklə müəyyən edilmiş digər tələblər əsas götürülməklə hazırlanmış seçki dairələrinin sxemi və onun qrafik təsvirinin yenidən təsdiq olunması ilə bağlı təklifləri Mərkəzi Seçki Komissiyasına təqdim edib.

İclasda həyata keçirilən əhatəli fəaliyyət barədə ətraflı məlumat verilib, Mərkəzi Seçki Komissiyası üzvlərinin geniş və hərtərəfli müzakirəsindən sonra Seçki Məcəlləsinin tələblərinə və yuxarıda qeyd edilənlərə uyğun olaraq, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi və seçki dairələrinin siyahısının dərc olunması qərara alınıb.

Media nümayəndələrinin də iştirak etdikləri iclasda həmçinin cari məsələlərə baxılıb.

**Qərar № 4/10**

## Mərkəzi Seçki Komissiyasının 2023-cü il 26 may tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 26 may tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*19.09.2023*

**Qərar № 4/11**

## Seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 29.1-ci və 29.5-ci maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) qanunvericiliklə müəyyən edilmiş qaydada seçki dairələri üzrə seçicilərin sayının orta təmsilçilik normasına uyğunlaşdırılmasını təmin edir, bu məqsədlə ardıcıl və sistemli tədbirlər görür, mütəmadi olaraq seçki dairələrinin sxemi və onun qrafik təsvirini nəzərdən keçirir, qanunvericiliyin tələblərini rəhbər tutaraq lazımi addımlar atır.

Seçicilərin sayının artım dinamikasının təhlilinə əsasən hazırda seçki dairələrində orta təmsilçilik normasının Seçki Məcəlləsinin 29.1-ci və 29.3-cü maddələrinə uyğun tənzimlənməsinə zərurət yarandığından seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Bununla əlaqədar Seçki Məcəlləsinin 29.3-cü, 29.4-cü, 29.7-ci və 46-cı maddələrinin tələblərinin təmin edilməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılan və mütəxəssislərdən ibarət olan seçki dairələrinin sərhədlərinin müəyyənləşdirilməsi üzrə komissiya da qeydə alınmış seçicilərin orta təmsilçilik norması və qanunvericiliklə müəyyən edilmiş digər tələblər əsas götürülməklə hazırlanmış seçki dairələrinin sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi ilə bağlı təkliflərini Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd olunanlara əsasən, Seçki Məcəlləsinin 19.4-cü, 28.4-cü, 29-cu və 46-cı maddələrinə uyğun olaraq **qərara alır:**

1. Seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsviri yenidən təsdiq edilsin və dairələrin siyahısı dərc olunsun.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*19.09.2023*

# Azərbaycan Respublikasında seçki dairələrinin siyahısı

**Seçki dairəsinin sıra sayı və adı**

1 saylı Şərur-Sədərək
2 saylı Şərur-Kəngərli
3 saylı Babək-Şahbuz-Kəngərli
4 saylı Naxçıvan şəhər
5 saylı Babək-Naxçıvan-Culfa
6 saylı Ordubad-Culfa
7 saylı Səbail
8 saylı Binəqədi birinci
9 saylı Binəqədi ikinci
10 saylı Binəqədi üçüncü
11 saylı Binəqədi-Qaradağ
12 saylı Xəzər birinci
13 saylı Xəzər ikinci
14 saylı Xəzər-Pirallahı
15 saylı Yasamal birinci
16 saylı Yasamal ikinci
17 saylı Yasamal üçüncü
18 saylı Nərimanov-Nizami-Binəqədi
19 saylı Nərimanov birinci
20 saylı Nərimanov ikinci
21 saylı Nəsimi-Binəqədi
22 saylı Nəsimi-Yasamal
23 saylı Nəsimi-Səbail
24 saylı Nizami birinci
25 saylı Nizami ikinci
26 saylı Sabunçu birinci
27 saylı Sabunçu ikinci
28 saylı Sabunçu üçüncü
29 saylı Sabunçu dördüncü
30 saylı Suraxanı birinci
31 saylı Suraxanı ikinci
32 saylı Suraxanı üçüncü
33 saylı Xətai birinci
34 saylı Xətai ikinci
35 saylı Xətai üçüncü
36 saylı Xətai-Suraxanı
37 saylı Qaradağ
38 saylı Gəncə birinci
39 saylı Gəncə ikinci
40 saylı Gəncə üçüncü
41 saylı Gəncə-Samux-Goranboy
42 saylı Sumqayıt birinci
43 saylı Sumqayıt ikinci
44 saylı Sumqayıt üçüncü
45 saylı Sumqayıt dördüncü
46 saylı Sumqayıt beşinci
47 saylı Sumqayıt-Abşeron-Qaradağ
48 saylı Abşeron birinci
49 saylı Abşeron ikinci
50 saylı Abşeron üçüncü
51 saylı Şirvan
52 saylı Yevlax
53 saylı Yevlax-Mingəçevir
54 saylı Mingəçevir
55 saylı Siyəzən-Quba-Xızı
56 saylı Şabran-Xaçmaz
57 saylı Xaçmaz şəhər
58 saylı Xaçmaz kənd
59 saylı Quba
60 saylı Quba-Qusar
61 saylı Qusar
62 saylı Kürdəmir
63 saylı Hacıqabul-Kürdəmir
64 saylı Salyan
65 saylı Salyan-Biləsuvar-Neftçala
66 saylı Saatlı
67 saylı Sabirabad
68 saylı Sabirabad-Şirvan
69 saylı Biləsuvar
70 saylı Neftçala
71 saylı Cəlilabad şəhər
72 saylı Cəlilabad kənd
73 saylı Masallı-Cəlilabad
74 saylı Masallı
75 saylı Yardımlı-Masallı
76 saylı Lənkəran-Masallı
77 saylı Lənkəran şəhər
78 saylı Lənkəran kənd
79 saylı Astara
80 saylı Lerik-Astara
81 saylı İmişli
82 saylı İmişli-Saatlı
83 saylı Beyləqan
84 saylı Füzuli
85 saylı Füzuli-Ağcabədi
86 saylı Ağcabədi
87 saylı Qobustan-Şamaxı-İsmayıllı
88 saylı Şamaxı
89 saylı İsmayıllı
90 saylı Ağsu
91 saylı Göyçay
92 saylı Göyçay-Ağdaş
93 saylı Ağdaş
94 saylı Ucar
95 saylı Zərdab-Kürdəmir-Ucar
96 saylı Goranboy
97 saylı Tərtər-Naftalan-Goranboy
98 saylı Bərdə-Tərtər
99 saylı Bərdə
100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər
101 saylı Samux-Şəmkir
102 saylı Şəmkir şəhər
103 saylı Şəmkir kənd
104 saylı Gədəbəy
105 saylı Tovuz-Gədəbəy
106 saylı Tovuz
107 saylı Tovuz-Qazax-Ağstafa
108 saylı Ağstafa
109 saylı Qazax
110 saylı Balakən
111 saylı Zaqatala-Balakən
112 saylı Zaqatala
113 saylı Qax-Şəki
114 saylı Şəki şəhər
115 saylı Şəki kənd
116 saylı Qəbələ
117 saylı Oğuz-Qəbələ-Şəki
118 saylı Ağdam şəhər
119 saylı Ağdam kənd
120 saylı Cəbrayıl-Qubadlı
121 saylı Laçın
122 saylı Xankəndi
123 saylı Kəlbəcər
124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd
125 saylı Zəngilan-Qubadlı

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsi anılıb

**Sentyabrın 19-da AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri xiyabanda görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoyublar.**



AZƏRTAC xəbər verir ki, anım mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan şərqşünaslığında ərəbşünaslıq sahəsinin çox inkişaf etdiyini bildirərək, onun ədəbiyyat istiqamətinin fundamentinin görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın elmi əsərləri ilə qoyulduğunu, Aida xanımın bu istiqamətin inkişafında əvəzsiz xidmətlərinin olduğunu qeyd edib. Professor Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığında bir məktəb yaratdığını deyən akademik İsa Həbibbəyli ərəb məhcər ədəbiyyatının tədqiqi ilə ərəbşünaslıqda yeni bir səhifə açan alimin fundamental tədqiqatlarının Azərbaycan və dünya şərqşünaslığını zənginləşdirdiyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva 31 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan danışıb, Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər Baxşəliyeva onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan Gövhər Baxşəliyeva onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb.

Daha sonra Şərqşünaslıq İnstitutunun əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova və Orxan Nəcəfov çıxış edərək Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığına böyük töhfələr verdiyini söyləyiblər, görkəmli alimin itkisinin tək şərqşünaslığın deyil, bütövlükdə Azərbaycan elminin böyük itkisi olduğunu qeyd ediblər.

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 19-da Ucar, Kürdəmir, Göyçay və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# Xankəndidə ermənilər ümidlidirlər:

## *"Separatçılardan bu dəfə, nəhayət ki, azad olacağıq"*

**Ordumuzun Qarabağda Azərbaycanın konstitusiya quruluşunun bərpası uğrunda lokal xarakterli antiterror tədbirlərinə başlaması Xankəndidə yaşayan erməniəsilli vətəndaşlarımızda normal həyat ümidi yaradıb. Belə ki, onlar separatçılardan azad olduqdan sonra ümumi vəziyyətlərinin xeyli yaxşılaşacağına inanırlar.**

Sosial şəbəkələrin ermənidilli seqmentində paylaşımlardan belə qənaətə gəlmək olur ki, onlar xilas formulunu Azərbaycanda görürlər. Ermənilərin bəzilərinin paylaşımlarını diqqətə çatdırırıq.

"İnstaqram" sosial şəbəkəsində lokal xarakterli antiterror tədbirləri ilə bağlı xəbərə münasibət bildirən, profil səhifəsində Xankəndidə yaşadığını qeyd edən İrana Minasyan adlı istifadəçi cəsarətli şərhi ilə diqqət çəkib: "Separatçıların yaratdığı xaos Stepanakertdə (Xankəndi-red.) insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Xankəndidəki ermənilərin taleyi Yerevandakıları maraqlandırmır. Azərbaycanın vətəndaşlıq çağırışına "hə" deyirəm. Biz bunu çoxdan gözləyirdik, lakin qorxudan səsimizi çıxara bilmirdik. Nəhayət, bu an gəlib çatdı. Qorxmayın!"

"Facebook" sosial şəbəkə istifadəçisi Aram Manukyan isə paylaşımlardan birinə maraqlı rəyi ilə diqqət çəkib: "Terrorçulardan, separatçılardan, nəhayət ki, azad olacağımıza inanırıq. Stepanakertdə cəhənnəmi yaşamaqdan bezmişik. Küçələr boş, şəhəri tərk edənlərin sayı hər gün artmaqdadır".

"Twitter" sosial şəbəkəsində rəy bildirən Baqran Qriqoryan adlı istifadəçi isə yazır: "Sarkisyan, Koçaryan kimilərinin əlində qalmışıq. Bu zülmdən qurtulmaq lazımdır. Babam deyirdi ki, türklərlə çox yaxşı münasibətlərimiz olub. Bu gün uşaqlarım niyə ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Axı niyə zülm çəkməliyik?"

Vladislav Markaryanın "Odnoklassniki" şəbəkəsində paylaşılan xəbərə verdiyi rəyə çoxlu reaksiya gəlib: "Bizə müharibə lazım deyil, övladlarımızı çöldən tapmamışıq. Ayılın! Terrorçulara inanmayın. 30 ildir inanmışıq, bədbəxt günlərə düşmüşük".

Göründüyü kimi, Azərbaycan Ordusunun son lokal xarakterli antiterror tədirlərindən sonra seçim Qarabağın erməni əhalisinə qalır. Əgər separatçı dəstələr əhaliyə qarşı qorxu, xof siyasətini davam etdirərsə, onda ordumuz tərəfindən daha sərt zərbələrə məruz qalacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# COVID-19-a yoluxma artır

**Dünya əhalisi koronavirusdan xilas olduğunu zənn etsə də, virus növbəti ştamları ilə özünü yenidən göstərməyə başlayıb. Artıq bir müddətdir ki, "Omikron"un subvariantı olan "EG.5" və ya digər adı ilə "Eris" dünyada sürətlə yayılır. Son bir ayda 1,5 milyon insan yeni növ koronavirus infeksiyasına yoluxub.**



Xüsusilə ABŞ, Rusiya, Çin və Avropanın bir sıra ölkələrində virusa yoluxma sayında ciddi artım müşahidə olunur. Yeni ştamm pandemiyanın hələ bitmədiyini və mutasiyaların davam etdiyini göstərir.

### Yeni ştamdan qorunmaq daha çətindir

Avqustun 9-da Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən COVID-19 virusunun yeni ştammı olan "Eris" "nəzarətdə saxlanılan variantlar" siyahısından çıxarılaraq "diqqət tələb edən" variantlar siyahısına daxil edilmişdi. Bu dəyişiklik son həftələrdə onun rastgəlmə tezliyinin dünya miqyasında gün keçdikcə artması nəticəsində baş verdi.

"Eris" orqanizmin immunqoruma mexanizmlərinə qarşı daha davamlıdır və yüksək yoluxduruculuğa malikdir. Buna görə də digərlərindən daha yoluxucu olan yeni ştamdan qorunmaq bir qədər çətindir. "EG.5" Omikron kimi ağciyəri yox, yuxarı tənəffüs yollarını zəbt edir. Xəstəlik boğaz ağrısı ilə başlayır, gedişatı isə influenzanı xatırladır.

ÜST-ün məlumatına görə, son ay ərzində dünya üzrə yoluxanların sayında 38 faiz artım müşahidə edilib. Avropada yoluxmada 39, Sakit okeanın qərbində 52, Aralıq dənizinin şərqində isə 113 faiz artım baş verib.

Bir neçə gün bundan öncə Türkiyədə də "Eris" virusu aşkarlanıb. Bu barədə Türkiyənin səhiyyə naziri Fahrettin Koca sosial şəbəkə hesabında məlumat verib. O bildirib ki, yoluxanların xarici ölkələrlə təmasları olub və onların hamısı eyni əyalətdəndir. F.Kocanın sözlərinə görə, yeni ştammın aşkarlanması ilə bağlı narahatlığa səbəb yoxdur: "Bu vəziyyət başqa ölkələrdə adi haldır. Bizdə də ola bilərdi. Yaşlılarımızı və xroniki xəstələrimizi qorumalıyıq".

Avstraliya, Böyük Britaniya, İtaliya, Koreya və Sinqapurda yoluxanların sayı kəskin artıb. ABŞ-də isə vəziyyət daha ağırdır. Belə ki, bu ölkədə COVID-19-a yoluxma halları 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-də hər gün 650 mindən çox sakində virus aşkarlanır. Yaxın aylarda isə ölkə əhalisinin təxminən 10 faizinin bu virusa yoluxacağı gözlənilir.

### Azərbaycanda "Eris"in yayılması barədə rəsmi məlumat yoxdur

COVID-19-un dünyada müşahidə olunan artım tendensiyası Azərbaycandan da yan keçməyib. Son bir ayın statistikasına əsasən, 7-13 avqustda ölkədə 8 yoluxma faktı qeydə alınıbsa, növbəti həftələrdə virusa yoluxanların sayı artıb. Nəticədə son həftədə ölkə üzrə 142 yoluxma qeydə alınıb. Bu isə əvvəlki həftələrə nisbətən yoluxmanın 17,75 dəfə artması deməkdir. Qeydiyyata düşməyən yoluxma sayının isə daha çox olduğu təxmin edilir. Vətəndaşlar pandemiyanın bitdiyini düşünərək, koronavirusun əlamətlərini hiss etdikdə belə test verməyi lazım bilmirlər.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Vasif Əliyev deyir ki, hazırda ölkəmizdə COVID-19-un "EG.5.1." variantına yoluxmanın olmadığını qətiyyətlə söyləmək mümkün deyil: "Koronavirusun yeni ştammı, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən insanlar əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar. Bu isə öz növbəsində belə infeksiyalara yoluxmuş insanların rəsmi qeydiyyata alınmasını çətinləşdirir. Hazırda Azərbaycanda koronavirusun "Eris" variantının yayılması barədə rəsmi məlumat yoxdur".

V.Əliyev bildirir ki, virusun sürətli yayılma tendensiyasını nəzərə alaraq vətəndaşlar diqqətli və tədbirli olmalıdırlar: "Bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir. Sanitar və gigiyenik qaydalara riayət edilməsi vacibdir. Bura sosial məsafənin gözlənilməsi, xəstə insanın ev şəraitində izlənilməsi, əl təmizliyi kimi qaydalar və sair aiddir.

Yaranmış vəziyyətin təhlükəli həddə çata biləcəyini nəzərə almaqla, vətəndaşların test verməmələri, eləcə də COVID-ə yoluxmanın yüksək həddə olduğu vaxtlardakı kimi tələb olunan qaydalara ciddi riayət etmələri vacibdir. Əks halda, COVID-in yeni dalğasının ciddi fəsadları ilə üzləşə bilərik.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Avqust tarixdə ən isti ay olub

## İqlim dəyişikliyi memarlıq abidələrini də məhv etməyə başlayıb

**Bu ilin avqust ayı tarixdə ən isti ay olub. Bu barədə iqlim dəyişikliyi araşdırması xidməti olan "Copernicus" (Kopernik) tərəfindən toplanmış statistikada qeyd edilir.**

Son hesablamalara görə, orta temperatur 1991-2020-ci illərin göstəricilərini 0,7°C keçib. İyundan avqusta qədər olan dövr tarixdə ən isti günlər olub. Avqust ayında Portuqaliyada, İtaliyada, Fransada, Şimali Afrikada, eləcə də ABŞ-nin mərkəzi və cənub hissələrində istilik dalğaları müşahidə edilib.

Bu dalğalar okeanlara da təsir edib. Qeyd edilir ki, 1980-ci illərin əvvəllərindən suyun temperaturunda nəzərəçarpacaq artım var. 2023-cü ildə suyun temperatu daha yarım dərəcədən çox istiləşib. Bu, daha bir rekord göstəricidir.

Antarktidada böyük ərazilərdə dəniz buzlarının konsentrasiyası orta səviyyədən aşağı düşüb. Bundan əlavə, avqust ayında dəniz buzunun rekord dərəcədə aşağı səviyyəsi qeydə alınıb. Bəzi ərazilərdə okeanın yalnız 15 faizi donub. Bu ilin may ayından etibarən Antarktikada dəniz buzları ən aşağı həddə çatıb.

İqlim dəyişikliyi səbəbindən memarlıq abidələri dağılma təhlükəsi ilə üzləşib. Belə obyektlərdən biri Dünya İrsinə daxil olan Potsdamdakı San-Susi Sarayı və Bağlarıdır. Hazırda bu obyekt böyük risk altındadır. Belə ki, istilik, quraqlıq və güclü yağış 300 illik mənzərənin vəziyyətinə mənfi təsir göstərir.

Avropada buna bənzər bir çox tarixi bağlar və saraylar qorunub saxlanılır. Bəs onlar sürətlə dəyişən iqlimə tab gətirə biləcəklərmi?

Potsdamdakı obyekt XVIII əsrdə Böyük Frederikin yay meydançasıdır. Prussiya kralı onu San-Susi - "qayğısız məkan" adlandırmışdı. Hər il buraya bir milyona yaxın ziyarətçi gəlir. Bağ direktoru Maykl Röderin dediyinə görə, istiləşmənin təsiri təxminən on ildir ki, hiss olunurdu, lakin son altı ildə fəsadlar daha çox nəzərə çarpır. Yağıntı azdır. Torpaq istidən əziyyət çəkir, süxur suları quruyur, ağaclar məhv olur. Yeraltı su səviyyəsinin aşağı olması səbəbindən bitkilər göbələk və parazitlərə daha həssas olur. Hər il qurumuş ağacların sayı artır. San-Susinin bəzi sarayları hazırda digər əlverişsiz hava şəraitindən əziyyət çəkir.

Bütün bu neqativ proseslər iqlim dəyişikliyindən qaynaqlanır.

Son onillikdə muzey mütəxəssisləri üçün Prussiya krallarının dövründə olduğu kimi, bu xəzinənin orijinal formada saxlanılması getdikcə çətinləşir. Təbii mənzərəni dəyişmək mümkün deyil. Ağaclar, yollar və su yolları dizaynerlərin nəzərdə tutduğu kimi qalmalıdır. Ümid edilir ki, uyğunlaşma strategiyaları həyata keçirilsə və parkda yaşayış şəraitinə uyğunlaşdırılmış bitkilər əkilsə, bu mümkün olacaq.

Lakin artıq aydındır ki, istiləşən planetdə bu mədəni irs obyektlərinin gələcək nəsillər üçün qorunması böyük problemlər yaradır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan videomüşahidə və kart buraxılış sistemlərinə, server otaqlarının monitorinqi sisteminə, habelə şlaqbaumlara texniki dəstək xidmətinin və bu sistemlər üçün ehtiyat hissələrinin satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 20.07.2023-cü il tarixli qərarına əsasən "B2B GROUP" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

**"XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi" MMC-yə (VÖEN: 1300220291) məxsus məktəbəqədər təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) fəaliyyətinə dair İSN/L-220/2016 qeydiyyat nömrəli 03.02.2016-cı il tarixli lisenziya itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Bahadur İmanquliyevə əzizi

**NURBALA FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5541
Sifariş 2392

Qiyməti 40 qəpik